

Milli azadlıqdan şirin nemət yoxdur!



# Prezident Sərəncam verdi

## Yeni maliyyə naziri təyin edildi


# YENİ AZƏRBAYCAN

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur. Yeni Azərbaycan Partiyasının orqanı.

7 fevral 2025-ci il, cümə
№ 022 (6850)
Qiyməti 60 qəpik




# O, sadəcə bülleten deyildi... Erməni separatçılarının tabutuna vurulan son mismar idi!

# Xankəndi 7 Fevral 2024

Bax səh. 2

# 1 milyon 100 min vətəndaşın pensiyası artırılıb

Bax səh. 3

## Qarabağın güclü sənaye potensialı...

Güclü iqtisadi potensiala, geniş maliyyə imkanlarına malik olan Azərbaycanın yeni strateji mərhələ üçün müəyyənləşdirdiyi beş milli prioritetdən biri İkinci Qarabağ müharibəsində işğaldan azad edilmiş ərazilərimizə "Böyük Qayıdışı" təmin etməkdir. Bu məqsədlə müvafiq Dövlət Proqramı qəbul olunub və hazırda onun icrası yüksək səviyyədə təmin olunur.

Dövət Proqramının reallaşdırılması çərçivəsində yaşayış məntəqələrinin bərpası və soydaşlarımızın layiqli şəkildə məskunlaşdırılması ilə paralel şəkildə, işğaldan azad olunmuş ərazilərin iqtisadi potensialından səmərəli şəkildə istifadə edilməsi də diqqət mərkəzində saxlanılır. Bu baxımdan...

Bax səh. 3

## XİN "Rus Evi" barədə Rusiya tərəfinə nota göndərib

Xarici İşlər Nazirliyinin məlumatına görə, "Rossotrudniçestvo"nun Azərbaycandakı nümayəndəliyi olan Rusiya İnformasiya-Mədəniyyət Mərkəzi - "Rus Evi"nin hüquqi şəxs qismində qeydiyyatının mövcud olmadığı və təşkilatın Azərbaycan qanunvericiliyini ciddi şəkildə pozduğu barədə Rusiya tərəfinə məlumat verildikdən sonra, fevralın 3-də "Rus Evi"nin fəaliyyətinə xitam verilməsi barədə Rusiya tərəfinə nota göndərilib. Azərbaycan tərəfinin ölkəmizdə "Rus Evi"nin fəaliyyətinə xitam verilməsi barədə qərarından irəli gələrək, Rusiya tərəfindən bu istiqamətdə müvafiq tədbirlər həyata keçirilməsi gözlənilir.

## Ermənistan məlumatları gizlətsə də...

Ermənistan torpaqlarımızın işğalı dövründə xalqımıza qarşı çoxsaylı cinayətlər törədib. Azərbaycana qarşı hərbi təcavüz zamanı dinc insanlar kütləvi qətlə yetirilib, girov götürülüb, eləcə də yaşayış məntəqələri tamamilə dağıdılıb. Eyni zamanda, müharibə dövründə itkin düşmüş minlərlə azərbaycanlının taleyi bugünədək məlum deyil.

**Birinci Qarabağ müharibəsində itkin hesab edilən daha üç şəhid...**

Xatırladaq ki, Birinci Qarabağ müharibəsində 3890 vətəndaşımız Azərbaycan Respublikasının Əsir və itkin düşmüş, girov götürülmüş...

Bax səh. 4

## USAID -in "qara" üzü - LGBT, çevrilişlər, korrupsiya...

USAID -in layihələrinin dayandırılması ilə bağlı qərar, eləcə də hesabatların açıqlanması bir sıra məsələlərə aydınlıq gətirdi. Məlum oldu ki, Bayden hakimiyyətinin "təsir imkanları" axtarışları hər zaman fərqli istiqamətlərə, fərqli vasitələrə əsaslanıb. Xüsusilə, xarici ölkələrdə xəyanətkar siyasi qruplarla əməkdaşlıq kontekstində, vətəndaş cəmiyyəti sıralarında "müttəfiq" müəyyənləşdirilməsində, nəzarəti altındakı KİV üzərindən çirkin planların həyata keçirilməsində USAID kimi üzdə "humanitar", alt qatda isə korrupsiya və siyasi oyunlarla...

Bax səh. 5

# Tarixi Zəfər seçkilərinin bir ili...



## Prezident İlham Əliyev: Xankəndidə verdiyim səs, o qutuya atdığım bülleten sadəcə olaraq, bülleten deyildi. Bu, erməni separatçılarının tabutuna vurulan son mismar idi

Bir il bundan əvvəl fevralın 7-də müstəqil Azərbaycanda növbədənkənar Prezident seçkiləri uğurla baş tutdu. Bu seçkilər çox doğru olaraq Zəfər seçkiləri kimi səciyyələndirilir. Ölkənin ərazi bütövlüyünün və suverenliyinin tam təmin edilməsi şəraitində baş tutması bəhs olunan seçkilərin önəmini şərtləndirir.

İkinci Qarabağ müharibəsinədək olan dövrdə işğal faktına görə seçkiləri ölkənin bütün ərazisində keçirmək mümkün olmurdu. 7 fevral 2024-cü ildə ilk dəfə seçkilər işğaldan azad edilmiş regionlarımız da daxil olmaqla respublikanın hər bir bölgəsində keçirildi. Azad, ədalətli və şəffaf şəraitdə keçirilən seçkilər ölkəmizin ictimai-siyasi həyatında müstəsna əhəmiyyətli hadisəyə çevrildi. Prezident seçkiləri ölkəmizdə keçirilən seçkilərin ən önəmlisidir. Buna görə də möhtəşəm qələbələrimizdən sonra ilk olaraq növbədənkənar prezident seçkilərinin keçirilməsi tam təbii idi.

## Məsuliyyətli seçki hazırlıqları

Ölkəmiz bu tarixi seçkilərə böyük məsuliyyətlə hazırlaşmışdı. Seçkilərə hazırlıqla bağlı bütün fəaliyyətlər Seçki Məcəlləsinin tələbləri əsas götürülməklə Mərkəzi Seçki Komissiyası (MSK) tərəfindən hazırlanıb təsdiq edilmiş Təqvim Planına uyğun ardıcıl, sistemli və mütəşəkkil qaydada gerçəkləşdirilmişdi. İstər Komissiya, istərsə də aidiyyəti qurumlar tərəfindən seçki qanunvericiliyində nəzərdə tutulmuş vəzifə və səlahiyyətlərin dəqiqliklə yerinə yetirilməsinə xüsusi diqqətlə yanaşılmışdı. Seçki prosesinin mühüm mərhələləri olan seçicilər siyahısının dəqiqləşdirilməsi, seçicilər də daxil olmaqla bütün seçki subyektlərinin maarifləndirilməsi, prezidentliyə namizədlərin irəli sürülməsi və qeydə alınması, bərabər şərtlərə əsaslanan seçkiqabağı təşviqat imkanlarının yaradılması, müşahidəçilər və media nümayəndələrinin fəaliyyəti üçün sərbəst və maneəsiz şəraitin təmin edilməsi, seçki günü səsvermənin təşkili ilə əlaqədar prosedurlara düzgün əməl olunması və digər tədbirlər qanunvericiliklə müəyyənləşdirilmiş qaydada, vaxtında və keyfiyyətlə həyata keçirilmişdi.

Növbədənkənar Prezident seçkilərində müstəqil Azərbaycan demokratiyaya sadiqliyini bütün dünyaya nümayiş etdirdi. Prezident seçkilərində 17 iddiaçı namizəd qismində iştirak etmək üçün müvafiq sənədləri Mərkəzi Seçki Komissiyasına təqdim edib və namizədliklərinin irəli sürülməsi təsdiq olunaraq onlara imza vərəqələri verilib. Namizədliyinin irəli sürülməsi təsdiq edilən 17 iddiaçıdan 10-u imza vərəqələrini, ümumiyyətlə, geri qaytarmayıb. İmza vərəqələrini və ona əlavə olunmuş sənədləri geri qaytaran 7 iddiaçının hamısının namizədliyi qeydə alınıb ki, onlardan 5-nin namizədliyi siyasi partiyalar tərəfindən irəli sürülüb, 2-si isə öz təşəbbüsü ilə seçkilərə qatılıb. Təbliğat prosesində bütün namizədlər üçün şərtlərin bərabərliyi prinsipi daim diqqətdə saxlanılıb. Seçki Məcəlləsinin tələblərinə əsasən qeydə alınmış namizədlərin və namizədi qeydə alınmış siyasi partiyaların seçicilərlə görüşlərinin keçirilməsi üçün ilkin mərhələdə respublikanın şəhər və rayonlarında 125 seçki dairəsi üzrə 139-u açıq, 142-si qapalı olmaqla, ümumilikdə, 281 ödənişsiz yer ayrılıb. Ardınca isə daha geniş imkanlar təmin olunması məqsədilə demək olar ki, respublikanın əksər yaşayış məntəqələrini əhatə edən 4500-ə yaxın əlavə görüş yerləri də təşviqat subyektlərinin sərəncamına verilib. Namizədlər və namizədi qeydə alınmış siyasi partiyalar ödənişsiz və heç bir icazə tələb olunmadan, sadəcə, müvafiq dairə seçki komissiyasını əvvəlcədən məlumatlandırmaqla həmin yerlərdə öz seçiciləri ilə görüşlər keçiriblər. Namizədlərin təşviqatı üçün bütün seçki məntəqələrini əhatə edən 10 mindən çox böyükölçülü lövhələr də quraşdırılıb. Seçkiqabağı təşviqat subyektləri MSK tərəfindən yaradılan bütün bu imkanlar və bərabər şəraitdən azad, sərbəst şəkildə, səmərəli istifadə ediblər. Yanvarın 15-dən start götürən seçkiqabağı təşviqat kampaniyası səsvermənin başlanmasına 24 saat qalanadək davam edib və ümumilikdə, müasir tələblərə cavab verən şəraitdə keçirilib.

## 790 beynəlxalq, 90 mindən çox yerli müşahidəçi

Prezident seçkilərində şəffaflığın yüksək səviyyədə təmin olunması üçün digər vasitələrlə yanaşı, bütün respublika coğrafiyasını əhatə edən 1000 seçki məntəqəsində internet vasitəsilə səsvermə prosesini əvvəldən-axıradək, fasiləsiz və birbaşa izləmək imkanı verən veb-kameralar quraşdırılıb. Prezident seçkilərinin müşahidəsinə 72 nüfuzlu beynəlxalq qurum və 89 ölkəni təmsil edən 790 beynəlxalq müşahidəçi qatılıb. Eyni zamanda, dünyanın 110 aparıcı xarici media subyektindən 217 təmsilçi MSK tərəfindən müvafiq lövhəciklə təmin edilərək seçkiləri izləyib. Respublikada fəaliyyət göstərən yerli media nümayəndələri isə heç bir əlavə akkreditasiya tələb olunmadan, seçki marafonu başlayandan sonadək sərbəst və maneəsiz şəkildə seçkilərin izlənilməsində iştirak ediblər.

Seçkilərin müşahidəsinə, həmçinin çoxsaylı siyasi partiyaları, qeydə alınmış namizədləri, qeyri-hökumət təşkilatlarını, vətəndaş cəmiyyəti institutlarını və ictimai birlikləri təmsil edən, eyni zamanda, öz təşəbbüsləri ilə seçkilərə qatılmış 90 mindən artıq yerli müşahidəçi qatılıb. Seçkilərin müşahidəsində qeyri-hökumət təşkilatlarının yüksək fəallığı xüsusi diqqət çəkib. Belə ki, seçkilərin müşahidəsinə bütövlükdə, 83 qeyri-hökumət təşkilatı, vətəndaş cəmiyyəti institutu və ictimai birliklərin 7000-ə yaxın müşahidəçisi də fəal şəkildə qoşulub. Bütün bunlarla yanaşı, ixtisaslaşmış 3 təşkilat tərəfindən seçkilərdə "exit-poll" keçirilib ki, onlardan 1-i öz fəaliyyətini xarici tərəfdaşı ilə birgə təşkil edib. "Exit-poll"ların nəticələri MSK-nın rəsmi nəticələri ilə demək olar ki, üst-üstə düşüb.

## Seçki məntəqələrində müşahidə edilən böyük qələbəlik

Bir il bundan əvvəl fevralın 7-də ölkənin hər yerində yaşanan çoşqu, bütün seçki məntəqələrində müşahidə edilən böyük qələbəlik hələ də xatirələrdən silinməyib. Prezident seçkiləri növbədənkənar elan olunmuşdu. Ancaq artıq tarixə dönən seçkilər yaddaşlarımızda növbəli seçkilər kimi qalıb. Dünya praktikasında, siyasi liderlərin karyeralarında Prezident seçkilərinin bu qədər izdihamlı keçməsi çox nadir hallarda rast gəlinib, bəlkə də, heç olmayıb. Səhər tezdən seçki hüququ olan vətəndaşlarımız məntəqələrə üz tutdular. Hamı deyib-gülür, hamının üz-gözündə sevinc ovqatı oxunurdu. Səliqəli, bayram əhval-ruhiyyəli məntəqələrin önündə isə onları uzun növbələr gözləyirdi. Seçkiləri izləmək üçün dünyanın müxtəlif ölkələrindən respublikamıza çoxsaylı müşahidəçilər təşrif gətirmişdilər. Onlar seçki məntəqələrinin qarşısında yaşanan izdihamı, növbələri görəndə heyrətlərini gizlətmirdilər, yarıciddi, yarızarafat bildirirdilər ki, özlüyündə növbələr müşahidəçilər üçün ən tutarlı və təkzibolunmaz faktlardır. Müşahidəçilər "bəlkə bu məntəqədə növbələr nümayiş üçün məqsədli şəkildə yaradılıb" düşüncəsi ilə başqa ünvanlara üz tuturdular. Ancaq yox, hər yerdə onların qarşısına izdiham, coşqu, seçici növbələri çıxırdı...



## Zəfər seçkilərinin qalibi

Ölkəmizdə Zəfər seçkiləri 125 seçki dairəsi üzrə 6319-u daimi, 218-i müvəqqəti olmaqla, ümumilikdə, 6537 seçki məntəqəsində keçirilib. Bu məntəqələrdən 47-si işğaldan azad olunmuş ərazilərdə, 49-u Azərbaycanın 37 xarici ölkədəki səfirlik, konsulluq və diplomatik nümayəndəliklərində yerləşib. Səsvermə günü seçicilər yüksək fəallıqla, azad və sərbəst şəkildə seçki məntəqələrinə gələrək öz iradələrini ifadə ediblər. Ümumilikdə, ölkə üzrə seçicilərin 76,43 faizi səsvermədə iştirak edib. Seçki günü ərzində 5 dəfə seçicilərin fəallığı barədə məlumatlar Dövlət Avtomatlaşdırılmış İnformasiya Sistemi üzərindən xüsusi proqram təminatı vasitəsilə birbaşa Mərkəzi Seçki Komissiyasına ötürülərək ictimailəşdirilib və Komissiyanın internet səhifəsində yerləşdirilib. MSK-nın məlumatına əsasən, Prezident İlham Əliyev fevralın 7-də keçirilən seçkilərdə səslərin 92,12 faizini (4 milyon 567 min 458 səs) toplayaraq qələbə qazanıb.

Yekun nəticələr belədir:

**Lider namizəd Əliyev İlham Heydər oğlu - 4 milyon 567 min 458 səs (92,12 faiz)**

**Əliyev Fuad Ağası oğlu - 26 min 517 səs (0,54 faiz)**

**Həsənquliyev Qüdrət Müzəffər oğlu - 85 min 411 səs (1,72 faiz)**

**Musayev Elşad Nəbi oğlu - 32 min 885 səs (0,66 faiz)**

**Mustafa Fazil Qəzənfər oğlu - 98 min 421 səs (1,99 faiz)**

**Nurullayev Razi Qulaməli oğlu - 39 min 643 (0,80 faiz)**

**Oruc Zahid Məhərrəm oğlu - 107 min 632 səs (2,17 faiz).**

## Bütöv bir mərhələnin yekunu, növbəti mərhələnin başlanğıcı

Seçkilərdə seçicilərin mütləq əksəriyyətinin Yeni Azərbaycan Partiyasının (YAP) namizədi İlham Əliyevə səs verməsi tam məntiqli idi. Bəhs olkunan seçkilərin böyük tarixi əhəmiyyəti var. Bu seçkilər respublikamızda Prezident İlham Əliyevin rəhbərliyi ilə əsas ümummilli ideyamızın həyata keçirildiyi bütöv bir mərhələnin yekunu və qarşda yeni mühüm çağırışların dayandığı növbəti mərhələnin başlanğıcı kimi dəyərləndirilir.

Biz yuxarıda ötən il fevralın 7-də seçki məntəqələrində müşahidə edilən uzun növbələrdən bəhs etdik. Seçki məntəqələrində müşahidə edilən uzun növbələr təəssüratlar yaradırdı. Bunun məntiqi hansı amillərlə bağlıdır? Sualın cavabı olaraq müxtəlif məqamlara diqqət çəkmək mümkündür. Zənnimizcə, burada lider amilini xüsusi vurğulamaq yerinə düşər. Seçkilərin nəticələrinə əsasən o fikri ifadə etmək mümkündür ki, seçicilər məhz İlham Əliyevin lehinə səs vermək üçün məntəqələrin qarşısında uzun növbələrə dayanıblar. 30 illik işğal dövründə torpaq təşnəsi ilə yanan cəmiyyətimizdə belə bir yekdil qənaət formalaşmışdı ki, hansı lider ərazi bütövlüyümüzü təmin etsə, həmin lider də Azərbaycana rəhbərlik etməlidir. Müzəffər Lider Özünün strateji baxışları, qətiyyəti sayəsində məhz İlham Əliyev oldu. İkinci Qarabağ müharibəsində, lokal xarakterli antiterror tədbirlərində qazanılan möhtəşəm qələbələrimizin əsas memarı məhz Prezident İlham Əliyevdir və seçkilərin qalibi olmaq da onun halal haqqıdır. Ölkəmiz, xalqımız tarixi zəfərlərin əldə olunmasınadək Onun liderliyi ilə uzun yol keçdi. Bu keçilən yolda Özünün təbirincə desək, nəyi necə və nə zaman etməyi hamıdan yaxşı bilən İlham Əliyev hər mərhələdə yaranan vəziyyətə və çağırışlara adekvat addımlar atmağı və düzgün qərarlar verməyi bacardı. Onun fəal, çevik diplomatiyası beynəlxalq miqyasda ölkəmizin mövqelərini möhkəmləndirdi. Dünyada dostlarımızın sayı artdı, beynəlxalq tədbirlərdə haqq səsimiz eşidildi, ermənilərin yalan təbliğatı iflasa uğradı.

Digər istiqamətlərdəki uğurlarımıza diqqət çəkək. 2003-cü ildə ilk dəfə Prezident seçilən İlham Əliyev xalqa verdiyi vədləri yerinə yetirmək üçün məqsədyönlü, ardıcıl siyasət həyata keçirib. O, paralel şəkildə ölkənin iqtisadiyyatının gücləndirilməsi qayğısına qalıb. Alınan qərarlar, bir-birini tamamlayan islahatların məntiqi nəticəsi olaraq respublikamızın iqtisadi müstəqilliyi, bu əsasda da siyasiu müstəqilliyi tam təmi olunub, maliyyə imkanlarımız əhəmiyyətli dərəcədə genişlənib. Bu gün heç bir güc mərkəzi Azərbaycanla diktat dili ilə danışmır və danışa da bilməz. İqtisadi müstəqillik zəminində ordu quruculuğu davamlı şəkildə diqqət mərkəzində saxlanılıb. Azərbaycan qısa müddətdə dünyanın 50 ən güclü ordusu sırasında yer alan Silahlı Qüvvələrini formalaşdırmağa nail olub.

Ölkənin idarəçilik sükanının arxasında inamla dayanan Prezident İlham Əliyev eyni zamanda cəmiyyətimizin güclü həmrəyliyini təmin edib. Onun ardıcıllıqla reallaşdırdığı məqsədyönlü siyasətin nəticəsidir ki, respublikamızda iqtidar-xalq vəhdəti təmin edilib. Bu gün Azərbaycan dünyada sabitlik adası kimi fərqlənir. İlham Əliyevin ölkəmizə rəhbərlik etdiyi dönəmdə respublikamızda Vətənə, ənənələrimizə və milli dəyərlərimizə bağlı olan gənc nəsil formalaşıb. Dövlətimizin başçısının dəfələrlə vurğuladığı kimi, 44 günlük müharibənin əsas ağırlığı da məhz vətənpərvər gənclərimizin üzərinə düşüb.

Başqa məqamları, digər istiqamətlərdə qazanılan uğurlarımızı da sadalaya bilərik. Vətən müharibəsində, antiterror tədbirlərində qələbələrimiz yalnız döyüşlərdə qazanılmayib. Biz qələbələrimizi kontekstdən çıxarıb ayrıca bir uğur kimi dəyərləndirə bilmərik. Məhz dövlətimizin başçısının rəhbərliyi ilə keçilən yol Azərbaycan xalqına qələbələrimizin sevincini yaşamağı nəsib edib. Bu yolda İlham Əliyev əsas ümummilli ideyamızı tələsmədən və gecikmədən reallaşdırmağa nail oldu. Qarşıdakı strateji mərhələdə isə bizi yeni ümummilli vəzifələrin reallaşdırılması gözləyir. Postmüharibə dövrünün əsas hədəfləri də məhz dövlətimizin başçısı tərəfindən müəyyənləşdirilib və ölkəmiz, xalqımız Onun rəhbərliyi ilə yeni məqsədlərə doğru inamlı addımlar atır.

## Niyə məhz Xankəndi?

Qeyd etdiyimiz kimi, 7 fevral seçkiləri ilk dəfə ölkənin bütün ərazisində keçirilməsi ilə əlamətdardır. İşğaldan azad olunmuş ərazilərdə 26 məntəqə yaradılıb. Həmin məntəqələrdə təxminən 23 minə yaxın seçici səs verib. Hər məntəqəyə 800-900 seçici düşür.

7 fevral seçkilərində bütün Azərbayca xalqı Prezident İlham Əliyevin və ailə üzvlərinin Xankəndidə səs verməlari ilə qürur duydu ki, bu da təsadüfi deyil. Ötən əsrin doxsanıncı illərinin əvvəllərində bir milyondan artıq soydaşımız Qarabağdan, o cümlədən də Xankəndidən zorla çıxarılmışdı. Həmin günləri xatırlayanda adam dəhşətə gəlir. Erməni vandallarının müxtəlif növ silahlarla təhdid etdiyi azərbaycanlılar soyuq qış aylarında əliyalın dağlara, dərələrə, meşələrə səpələndilər. Onların böyük bir qismi soyuqdan donaraq həyatla vidalaşdı və yaxud güllə yağışına tuş gəldi. İnsanlıq normaları ilə bir araya sığmayan bu vəhşilikləri törədən ermənilər isə özlərini dünyaya "mədəni xalq" kimi təqdim etmək üçün miflər düzəldirdilər.

Ancaq Azərbaycan xalqının yaddaşı yurd yerlərinə möhkəm bağlıdır. Biz otuz il ərzində babalarımızın ruhu dolaşan torpaqlarımızı unutmadıq və nə vaxtsa o yerlərə qayıdacağımıza inandıq. Tarixi zəfərlərimizdən sonra artıq işğaldan azad olunan ərazilərə Böyük Qayıdışa başlanıb və proses davamlı olaraq genişlənir.

Fevralın 7-də Prezident İlham Əliyevin və ailə üzvlərinin səs vermək üçün Xankəndi şəhərini seçmələri isə xüsusi önəm daşıyır. Bir vaxtlar separatizmin yuvasına çevrilmiş Xankəndidə Azərbaycan bayrağının dalğalanması, gerbimizin asılması, Azərbaycan Respublikasının Prezidenti seçkilərinin keçirilməsi adama xəyal kimi görünürdü. Arzularımızı, xəyallarımızı Müzəffər Prezident İlham Əliyev reallaşdırdı. Onun göstərişi ilə 2023-cü il sentyabrın 19-da Qarabağda separatizmin kökünü birdəfəlik kəsmək üçün lokal xarakterli antiterror tədbrləri keçirildi. Cəmi 23 saat ərzində uğurla tamamlanan antiterror tədbirləri zamanı mülki insanlar və infrastruktur ziyan çəkmədi, yalnız separatçıların qanuni hərbi hədəfləri məhv edildi. Bununla da separatçılar ağ bayraq qaldırdılar.

Xankəndi ilə bağlı sonrakı proseslər də tariximizin qızıl səhifələrini təşkil edir. Müzəffər Prezident İlham Əliyev 2023-cü il oktyabrın 15-də Xankəndidə Azərbaycan Bayrağını ucaldaraq bütün dünya azərbaycanlılarına sonsuz qürur hissi yaşatdı. Xatırladaq ki, 15 oktyabr İlham Əliyev və xalqımız üçün çox əlamətdar bir gün idi - həmin tarixdə Onun ilk dəfə Azərbaycan Prezidenti seçilməsinin 20-ci ili tamam olmuşdu. 15 oktyabr 2023-cü ildə Xankəndidə bayrağımızın ucaldılması, gerbimizin asılması, 7 fevral 2024-cü ildə isə Müzəffər Liderimizin ailə üzvləri ilə birlikdə bura gələrək səs verməsi qərinələr boyunca minnətdarlıq hissi ilə xatırlanacaq epoxal hadisələrdir.

İlham Əliyev Azərbaycanın Prezidentidir və ölkənin bütün ərazisində səs vermək hüququna malikdir. Bəs dövlət başçısı vətəndaş mövqeyini bildirmək üçün niyə paytaxt Bakıda deyil, məhz Xankəndidə səs verdi? Dövlət başçısı bu dəfə Xankəndidə heç bir çıxış etmədi, müsahibələr vermədi. Ancaq Prezident İlham Əliyevin bu dəfəki seçimi böyük siyasi anlama malikdir. O, tarixi gündə dünyaya, Ermənistandakı revanşislərə və onların Qərbdəki havadarlarına mesajlarını məhz Xankəndi seçimi ilə verdi. Dövlətimizin başçısı ötən il fevarlın 14-də Milli Məclisdə andiçmə mərasimində bildirib ki, Xankəndidə verdiyim səs, o qutuya atdığım bülleten sadəcə olaraq, bülleten deyildi. Bu, erməni separatçılarının tabutuna vurulan son mismar idi.

*Mübariz ABDULLAYEV*

# 1 milyon 100 min vətəndaşın pensiyası artırılıb

## Artımların maliyyələşdirilməsi üçün dövlət büdcəsindən illik əlavə olaraq 534 milyon manat vəsait ayrılacaq




Məlum olduğu kimi Prezident İlham Əliyevin fevralın 5-də imzaladığı "Əmək pensiyalarının indeksləşdirilməsi haqqında" sərəncama əsasən, bütün əmək pensiyalarının artırılması təmin olunacaq. Belə ki, ölkə üzrə ötən ilin orta aylıq nominal əməkhaqqının illik artım tempinə uyğun olaraq, 2025-ci il yanvarın 1-dək təyin edilmiş əmək pensiyalarının sığorta hissəsi, qulluq stajına görə əmək pensiyasına əlavələr təyin edilmiş əmək pensiyaçılarına münasibətdə - həmin əlavələrlə birlikdə müəyyən edilmiş məbləği və 2023-cü il yanvarın 1-dən əmək pensiyalarının tərkibinə daxil edilən maddi yardımlar indeksasiya olunmaqla artırılacaq.

İndeksləşdirmə bütün növ əmək pensiyalarına şamil olunur. "Əmək pensiyaları haqqında" qanunun 4-cü maddəsinə əsasən, əmək pensiyalarının 3 növü təsbit olunub. Bunlar yaşa görə əmək pensiyası, əlilliyə görə əmək pensiyası və ailə başçısını itirməyə görə əmək pensiyasıdır. Deməli, vətəndaşımız növündən asılı olmayaraq əmək pensiyası alırsa onun pensiya məbləğinə artım hesablanacaq. Həmçinin pensiyaçı olan hərbi qulluqçular, hüquq-mühafizə orqanları əməkdaşları da artımla əhatə olunacaqlar.

**Sığortaolunanların pensiya kapitalı da indeksləşdiriləcək**

Qanunvericiliyə əsasən, indeksləşdirmə əvvəlki ilin göstəricisinə uyğunlaşdırıldığına görə 2024-cü ilin dekabrın 31-i daxil olmaqla ötən il pensiya hüququ qazanan bütün vətəndaşların pensiyaları artırılacaq. Belə ki, orta aylıq nominal əməkhaqqının illik artım tempinə uyğun olaraq, 2024-cü il yanvarın 1-dək təyin edilmiş əmək pensiyalarının sığorta hissəsi, qulluq stajına görə əmək pensiyasına əlavələr təyin edilmiş əmək pensiyaçılarına münasibətdə həmin əlavələrlə birlikdə müəyyən edilmiş məbləğ artırılır.

Artımın hesablanması formulası belədir: Pensiya məbləği X indeksasiya faizi = artırılmış məbləğ. Məsələn, pensiyası 550 manat olan vətəndaşımız üçün artım faizi belə hesablanacaq: 550 manat X 8.1 faiz = 44.55. Yeni vətəndaşımızın pensiya məbləği artımdan sonra 594.55 manat olacaq.Yaxud, 400 manat pensiya alan vətəndaşımız üçün artım belə hesablanır: 400 manat X 8,1 faiz = 32,4 manat. Bu halda yeni pensiya məbləği 432,4 manat olacaq. Yəni, məbləğindən asılı olmayaraq hər bir pensiya tam olaraq indeksasiya faizi nəzərə alınmaqla artırılacaq.

Pensiya artımları 1 milyon 100 min vətəndaşımıza şamil olunacaq. Artımların maliyyələşdirilməsi üçün dövlət büdcəsindən illik əlavə olaraq 534 milyon manat vəsait ayrılacaq.

Dövlət başçısının müvafiq sərəncamına əsasən, eyni zamanda, ölkə üzrə istehlak qiymətləri indeksinin illik səviyyəsinə uyğun olaraq, sığortaolunanların fərdi şəxsi hesabının sığorta hissəsindəki vəsaitlər, yəni pensiya kapitalı məbləğləri də indeksləşdiriləcək. Belə ki, istehlak qiymətləri indeksi ötən il üzrə 2,2 faiz təşkil etdiyindən sığortaolunanların fərdi hesablarındakı pensiya kapitalları da 2025-ci il yanvarın 1-dən etibarən 2,2 faiz indeksləşdirilərək artırılacaq.

"Əmək pensiyalarının indeksləşdirilməsi haqqında" sərəncama uyğun olaraq, bütün pensiyalar Dövlət Statistika Komitəsinin təqdim etdiyi göstərici üzrə, yəni 2024-cü il üzrə orta aylıq əməkhaqqının 8,1 faiz artımı nisbətində indeksləşdiriləcək. Pensiya artımları pensiyaçıların hər hansı sənəd təqdim etmələrinə, müraciətinə ehtiyac qalmadan, elektron sistem üzərindən avtomatik şəraitdə həyata keçiriləcək.

Bütün pensiyalara edilmiş artımlar fevral ayında təmin olunacaq, həmçinin yanvar ayı üzrə hesablanmış artım məbləğləri də fevarlın pensiyasının üzərinə əlavə olunacaq.




**Minimum pensiyalar 280 manatdan 320 manata çatdırılıb**

Beləliklə, "Əmək pensiyalarının indeksləşdirilməsi haqqında" sərəncam 2025-ci ilu ilin əvvəlindən reallaşdırılan yeni sosial islahat paketi çərçivəsində pensiyalarda da növbəti artımların təmin edilməsinə, onların sosial müdafiəsinin gücləndirilməsi sahəsində ardıcıl xarakter alan tədbirlərin uğurla davam etdirilməsinə imkan yaradacaq.

Ölkə üzrə minimum pensiyalar da fevralın 1-dən artımla ödəniləcək. Belə ki, fevralın 1-dən etibarən ölkə üzrə minimum pensiyanın məbləği 14,3 faiz artırılaraq 280 manatdan 320 manata çatdırılıb.

Sosial paket çərçivəsində ən əhatəli artımlardan biri minimum aylıq əməkhaqqının məbləğinin 16 faiz artırılaraq 345 manatdan 400 manata çatdırılmasıdır. Minimum əməkhaqqındakı artım sadəcə aşağı maaş alanların deyil, eləcə də vahid tarif cədvəlinin (VTC) bütün pillələri üzrə əməkhaqlarında artımları təmin edilməkdədir. Belə ki, dövlət büdcəsindən maliyyələşdirilən sahələrdə çalışan işçilərin aylıq tarif (vəzifə) maaşları da təxminən bir ay müddətində bu Sərəncama uyğunlaşdırılacaq və artırılıb. Sosial, elm, səhiyyə, mədəniyyət, gənclər və idman, kənd təsərrüfatı, ekologiya və ətraf mühitin mühafizəsi, mənzil-kommunal, nəqliyyat və rabitə, meliorasiya, su təsərrüfatı və balıqartırma sahələrində çalışan dövlət qulluqçusu statusu olmayan işçilərin də əməkhaqqı artırılıb. Beləliklə, 2025-ci il yanvarın 1-dən 400 manata çatdırılacaq minimum əməkhaqqının yeni əmsalları sayəsində ölkə üzrə 700 mindən çox vətəndaşın əmək haqqının artımı təmin olunur.




**Müavinət və təqaüdlərin artırılması da təmin olunacaq**

Minimum əməkhaqqının növbəti artımından sonra bu rəqəm yaşayış minimumunu təxminən 30-40 faiz üstələmiş olacaq. Digər tərəfdən, minimum əməkhaqqı artımı, ölkəmizdə xalis minimum əməkhaqqının xalis orta aylıq əməkhaqqına olan nisbəti göstəricisinin də yüksəlməsinə imkan verəcəkdir. Qeyd edək ki, həmin nisbət 2018-ci ildəki 26,5 faizdən 2019-cu ildəki 33,3 faizə, 2020-ci ildəki 38 faizə yüksəlib. 2022-ci ildə isə 40 faiz səviyyəsinə yüksəlib. Bununla da bu nisbətin qabaqcıl beynəlxalq normalara uyğunlaşdırılması istiqamətində mühüm irəliləyiş olacaq.

Müavinət və təqaüdlərin artırılması isə yaxın aylarda təmin olunacaq. Ümumilikdə bu ilin əvvəlindən həyata keçirilən növbəti sosial islahat paketi üzrə sosial ödənişlərdə yeni artımlar üçün əlavə 1,4 milyard manat vəsait ayrılıb və həmin artımlar 3 milyon vətəndaşı əhatə edəcək.

*ELBRUS CƏFƏRLİ*

# Qarabağın güclü sənaye potensialı...

## Burada yaradılan iqtisadi zonalara investisiya qoyuluşu artır

Güclü iqtisadi potensiala, geniş maliyyə imkanlarına malik olan Azərbaycanın yeni strateji mərhələ üçün müəyyənləşdirdiyi beş milli prioritetdən biri İkinci Qarabağ müharibəsində işğaldan azad edilmiş ərazilərimizə "Böyük Qayıdışı" təmin etməkdir. Bu məqsədlə müvafiq Dövlət Proqramı qəbul olunub və hazırda onun icrası yüksək səviyyədə təmin edilir.

Dövət Proqramının reallaşdırılması çərçivəsində yaşayış məntəqələrinin bərpası və soydaşlarımızın layiqli şəkildə məskunlaşdırılması ilə paralel şəkildə, işğaldan azad olunmuş ərazilərin iqtisadi potensialından səmərəli şəkildə istifadə edilməsi də diqqət mərkəzində saxlanılır. Bu baxımdan bəhs olunan ərazilərdə istehsal müəssisələrinin, sənaye zonalarının yaradılması müstəsna önəm daşıyır. Hazırda işğaldan azad edilmiş ərazilərdə fəaliyyət göstərən sənaye parklarına investorların cəlb edilməsi, yeni sənaye müəssisələrinin yaradılması istiqamətində işlər sürətlə davam etdirilir. Bu barədə İqtisadi Zonaların İnkişafı Agentliyinin (İZİA) İdarə Heyətinin sədri Seymur Adıgözəlov keçirdiyi brifinqdə çıxışı zamanı bildirib.

## Ağdam Sənaye Parkının 70 faizə yaxın hissəsi sahibkarların istifadəsinə verilib

Hazırda ölkədə 8 sənaye parkı fəaliyyət göstərir. Bunlar Sumqayıt kimya, Qaradağ, Pirallahı, Mingəçevir, Balaxanı, Hacıqabul, Ağdam və Cəbrayıl rayonunda yerləşən sənaye parklarıdır. Bunlarla yanaşı, Masallı, Neftçala, Sabirabad və Şərurda 4 sənaye məhəlləsi də fəaliyyət göstərir.

Sənaye zonalarında sahibkarlığın inkişafına əlverişli şərait yaradılıb və rezidentlər üçün stimullaşdırıcı tədbirlər tətbiq olunur. Belə ki, sənaye parklarının rezidentləri dövlət vəsaiti hesabına hazır infrastrukturla - qaz, işıq, su, kanalizasiya, fiber-optik, daxili avtomobil və dəmir yolları xətləri ilə təmin edilirlər. Onlar qeydiyyata alındıqları tarixdən etibarən 10 il müddətinə əmlak, torpaq, gəlir vergilərindən, həmçinin istehsal məqsədilə texnikanın, texnoloji avadanlıqların və qurğuların idxalı zamanı ƏDV-dən və gömrük rüsumlarından azad olunurlar.

Bundan başqa, işğaldan azad olunmuş ərazilərdəki mövcud sənaye parklarında əlavə güzəştlər də tətbiq edilir. Bunlara xüsusi güzəştli bank kreditləri, sosial sığorta ödənişlərinin subsidiyalaşdırılması, kommunal xidmətlərə 20 faiz endirim, idxal olunan xammal və materiallar üzrə gömrük rüsumları və ƏDV-dən tam azadolma (müəyyən edilmiş siyahıya əsasən) aiddir.

Haqqında bəhs olunan Ağdam Sənaye Parkının perspektivləri kifayət qədər böyükdür. Brifinqdə Seymur Adıgözəlov vurğulayıb ki, 190 hektar ərazidə yaradılan Ağdam Sənaye Parkının 70 faizə yaxın hissəsi sahibkarların istifadəsinə verilib. "Sənaye parkı qısa müddət ərzində yaradılmasına baxmayaraq hazırda rezidentlərin sayına görə Sumqayıt Kimya Sənaye Parkından sonra ölkədə ikinci böyük park hesab edilir. İndiyədək Ağdam Sənaye Parkında 29 sahibkarlıq subyektinə rezidentlik, 4 sahibkara isə qeyri-rezidentlik statusu verilib. Bu rezidentlər tərəfindən sənaye parkına 276 milyon manatdan çox investisiya yatırılması və 2400-dən artıq iş yerinin yaradılması nəzərdə tutulur. Artıq sahibkarlar tərəfindən parkda görülmüş işlərə 107 milyon manatdan çox investisiya yatırılıb, 457 daimi iş yeri yaradılıb. İşəgötürmə prosesində Ağdam və ətraf rayonlardan olan əhaliyə üstünlük verilir. Hazırda Ağdam Sənaye Parkında 9 müəssisə fəaliyyət göstərir. Parkda istehsal edilən məhsulların daxili bazara satışı ilə yanaşı, ixracı istiqamətində də uğurlar əldə edilib. Sənaye Parkının rezidentləri tərəfindən 22,3 milyon manatlıq məhsul satışı edilib", - deyə İZİA rəsmisi bildirib.

Xatırladaq ki, İqtisadi Zonaların İnkişafı Agentliyinin idarəçiliyində Ağdam Sənaye Parkı dövlətimizin başçısının 2021-ci il 28 may tarixli Fərmanına əsasən yaradılıb. Parkın yaradılmasında məqsəd işğaldan azad edilən ərazilərin dirçəldilməsi, Qarabağın sənaye potensialının reallaşdırılması, sahibkarlığın dəstəklənməsi, əhalinin istehsal sahəsində məşğulluğunun artırılmasıdır.

Bölgənin coğrafi mövqeyi, insan resursları və infrastruktura çıxış imkanları rayonun gələcəkdə Qarabağın sənaye mərkəzinə çevrilməsi imkanlarını genişləndirəcək. Sənaye parkının prioritet istiqamətləri kimi tikinti materiallarının istehsalı, kənd təsərrüfatı məhsullarının qablaşdırılması, meyvə-tərəvəz konservləri, ət və süd məhsulları, yem, gübrə istehsalı və emalı, eyni zamanda,



xidmət sahələrinin, soyuducu kameraların və s. təşkili müəyyənləşdirilib. Əlamətdar haldır ki, Prezident İlham Əliyev işğaldan azad olunmuş ərazilərə səfərləri çərçivəsində Ağdam Sənaye Parkında bir sıra müəssisələrin açılış və yaxud təməlqoyma mərasimlərində şəxsən iştirak edib.

## "Araz Vadisi İqtisadi Zonası" Sənaye Parkına 130 milyon manatdan çox investisiyanın yatırılması nəzərdə tutulur

"Araz Vadisi İqtisadi Zonası" Sənaye Parkı işğaldan azad edilmiş ərazilərdə reallaşdırılan irimiqyaslı layihələrdən biridir. Prezident İlham Əliyev Şərqi Zəngəzur iqtisadi rayonunda yaradılan "Araz Vadisi İqtisadi Zonası" Sənaye Parkının təməlini 4 oktyabr 2021-ci il tarixində qoyub. Şərqi Zəngəzur iqtisadi rayonunun Arazboyu ərazisinin əsasən düzənlik relyefə və bölgənin cənub istiqamətində giriş qapısı mövqeyinə malik olması "Araz Vadisi İqtisadi Zonası" Sənaye Parkının fəaliyyəti üçün əlverişli şəraiti təmin edir. Logistik imkanlar baxımından əlverişli ərazidə təşkil olunması investorların diqqətini cəlb edən əsas məqamlardan biridir. Belə ki, Sənaye Parkı yeni salınan magistral avtomobil yolu və dəmir yollarının üzərində yerləşir ki, bu da ərazidən həmin magistral yollara birbaşa giriş-çıxışı təmin edəcək. Bu avtomobil və dəmir yolları Zəngəzur dəhlizi vasitəsilə Azərbaycandan Türkiyəyə və Türkiyədən Azərbaycana, eləcə də Azərbaycan ərazisindən Rusiyaya yüklərin daşınması üçün yeni əlverişli imkanlar yaradacaq.

"Araz Vadisi İqtisadi Zonası" Sənaye Parkının hazırda 16 rezidenti və 2 qeyri-rezidenti olduğunu deyən qurum rəhbəri əlavə edib ki, 18 sahibkarlıq subyekti tərəfindən sənaye parkına, ümumilikdə, 130 milyon manatdan çox investisiyanın yatırılması, 1800-dən çox daimi iş yerinin yaradılması nəzərdə tutulur: "Bu günədək sənaye parkında görülmüş işlərə rezidentlər tərəfindən 29,6 milyon manatdan çox investisiya yatırılıb, 100-ə yaxın daimi iş yeri yaradılıb. Parkın 30 faizdən çox hissəsi sahibkarların istifadəsinə verilib. Hazırda işğaldan azad edilmiş ərazilərdə mövcud sənaye parklarında 15-dən çox müəssisənin tikintisi istiqamətində işlər aparılır. Cari ildə Ağdam və "Araz Vadisi İqtisadi Zonası" sənaye parklarında tütün məmulatlarının, dekorativ daşların, müxtəlif çeşiddə yapışqan lentlərin, dezinfeksiyaedici, maye yuyucu və ağardıcı məhsulların istehsalı müəssisələrinin fəaliyyətə başlaması, plastik taraların, yüksək gərginlikli elektrik enerjisinin ötürülməsi üçün müxtəlif metal elektrik dirəklərin istehsalı müəssisələrinin təməlqoyması planlaşdırılır", - deyə qurum rəsmisi bildirib.

Agentlik sədri diqqətə çatdırıb ki, ümumilikdə ölkəmizdə mövcud sənaye zonaları iş adamlarının investisiya yatırmaları baxımından ən əlverişli biznes məkanıdır. Bu xüsusda fikirlərini ifadə edən İZİA sədri deyib: "Bir maraqlı məqamı diqqətə çatdırım ki, İqtisadi Zonaların İnkişafı Agentliyinin idarəçiliyində olan sənaye parklarında tətbiq edilmiş idxal ƏDV-si və gömrük güzəştləri nəticəsində rezidentlər bu günə qədər 505 milyon manatdan çox, 2024-cü il ərzində isə 44 milyon manatdan artıq vəsaitə qənaət ediblər. Bundan başqa, işğaldan azad olunmuş ərazilərdəki mövcud sənaye parklarında əlavə güzəştlər də tətbiq edilir. Bunlara sosial sığorta ödənişlərinin subsidiyalaşdırılması, kommunal xidmətlərə 20 faiz endirim, Nazirlər Kabineti tərəfindən təsdiq edilmiş bir sıra xammal və materialların idxalının gömrük rüsumları və ƏDV-dən tam azadolması, xüsusi güzəştli bank kreditləri və s. aiddir".

*Mübariz FEYİZLİ*

# Rusiya məsuliyyətini qəbul etməlidir

## Atəş əmri verənlərin və atəş açanların kimliyi Azərbaycan tərəfinə bəllidir

AZAL-ın ötən il dekabrın 25-də Bakı-Qroznı reysi ilə uçan və Aktau yaxınlığında qəzaya uğrayan təyyarəsi ilə bağlı açıqlanan son hesabatlar bir çox suallara aydınlıq gətirir. Hesabatda götərilir ki, təyyarə Rusiyanın hava məkanında, o cümlədən Qroznı hava limanı üzərində GPS siqnallarının itməsi halı ilə üzləşib. Daha sonra təyyarə hava şəraitinin əlverişli olmaması səbəbindən Qroznı üzərində ikinci enişi yerinə yetirə bilmədikdən sonra kapitan Bakıya qayıtmaq barəsində qərar verib - qərarın qəbul edilməsindən sonra Qroznı üzərində CVR-da 24 saniyə aralıqla iki dəfə kənar səsin gəlmə faktı qeydiyyata alınıb. CVR və FDR məlumatlarının tutuşdurulması nəticəsində müəyyən edilib ki, birinci kənar səsdən 4 saniyə sonra 3-cü hidravlik sistem, 6 saniyə sonra 1-ci hidravlik sistem, 21 saniyə sonra 2-ci hidravlik sistem funksionallığını itirməklə sıradan çıxıb.

O da göstərilir ki, hava gəmisinin füzelyajında çoxsaylı dəlib keçən və kor zədələrin olması faktı aşkar olunub və foto, habelə video qeydiyyata alınıb. Həmin zədələr hava gəmisinin füzelyajının arxa hissəsində, xüsusilə şaquli və üfüqi stabilizatorlarında çox sayda, habelə sol qanadda və sol mühərrikdə aşkar olunub. Hesabatda hava gəmisinin quşlarla toqquşmasına işarə edən hər hansı fakt barəsində məlumat təqdim edilməyib. Təyyarənin qalıqlarının kor zədələrində olan, hava gəmisinə məxsus olmayan kənar obyektlər aşkarlanaraq götürülüb və həmin kənar obyektlərin foto şəkilləri ilkin hesabat mətnində ictimaiyyətə təqdim edilib. Hesabatda bildirilir ki, 05:13:32-də hava gəmisinin əsas idarəetmə sistemləri itirilir, 05:21:42-də əlaqələndirici dispetçer "Kover" əməliyyatı barədə Qoznıya məlumat verir. Qeyd edək ki, qəzadan sonra əsasən Rusiya mətbuatının daha çox "təbliğ etdiyi" oksigen balonunun partlaması ilə bağlı faktı ehtiva edən hər hansı bir məlumat hesabatda yer almayıb.

### "Rosaviasia"nın məsuliyyətdən yayınmaq üçün verdiyi əsassız açıqlamalar...




Qeyd edilənlər bir daha onu göstərir ik, təyyarə qəzası heç də Rusiyanın bəzi orqanlarının və mətbuatının iddia etdiyi kimi "yan səbəblərdən" baş verməyib - tam əksinə, təyyarənin kənar müdaxilə nəticəsində qəzaya uğraması artıq təsdiqlənir. Beləliklə də, Rusiyanın bəzi orqanlarının məsələnin istiqamətini fərqli cəhətlərə yönləndirmək manipulyasiyaları da iflasa uğrayır. Hüquqi qiymətləndirmə nəticəsində baş verənlərdə günahı olanların məsuliyyətlərləri aydındır - Rusiya bununla bağlı lazımi addımları atmalıdır. Amma görünən budur ki, Rusiya tərəfi heç də hüquqi prosedurlara riayət etmək fikrində deyil - tam əksinə, onlar inkar etməklə "nəyəsə" nail ola biləcəklərini düşünürlər. Bu isə mümkün deyil. "Rosaviasia"nın məsuliyyətdən yayınmaq üçün verdiyi əsassız açıqlamalar işə yaramır - hətta Rusiya mətbuatının cəhdləri də boşa çıxır. Rusiya tərəfi məsələni ört-basdır etmək, məsuliyyəti təyyarə heyətinin üzərinə atmaq üçün min bir yola baş vurur. Amma həqiqət ortadadır - Rusiyanın rəsmi qurumlarının, ayrı-ayrı şəxslərin, Rusiya mətbuatının nə deməsindən asılı olmayaraq ortada real həqiqətləri özündə əks etdirən hesabat mövcuddur.




### Rusiya ənənəvi ampluasında...

Baş verənlər isə ilk deyil - Rusiya bir çox hallarda törətdiyi bu kimi əməllərdən yayınmaq üçün bəhanələr gətirib. Məsələn, 2014-cü ildə Amsterdamdan Kuala-Lumpura uçan, "Malaysia Airlines" aviaşirkətinə məxsus "Boinq-777" təyyarəsi Ukraynanın cənub-şərq hissəsində vurulmuş, təyyarənin göyərtəsində olan 298 nəfər həlak olmuşdu. Təyyarənin Rusiya tərəfindən işğal olunmuş Donbasın hava məkanında, məhz Rusiyaya aid silahla vurulması təsdiqlənsə də, Moskva bu günə qədər də məsuliyyəti öz üzərinə götürmür, əsassız yerə Ukraynanı günahlandırır.

Bu dəfə və eyni taktikanın seçilməsi gözdən yayınmır. Amma əlahəzrət fakt ortadadır - araşdırmaların nəticələri, qəzanın ardıcıllığı, faktlar və dəlillər başqa şey deyir. Açıq aydın görünür ki, Azərbaycan təyyarəsi Qroznı üzərində atəşə məruz qalıb, ardıcıl bir neçə atəş açılıb, hava gəmisinin əsas idarəetmə sistemləri 05:13:32-də sıradan çıxıb, əlaqələndirici dispetçer isə



"Kover" əməliyyatı barədə Qoznıya 8 dəqiqə sonra - 05:21:42-də məlumat verib. Burdan aydın olur ki, Azərbaycan tərəfinin və təyyarə ekipajının "Kover" əməliyyatından xəbəri ola bilməzdi. Bu da onu göstərir ki, Rusiya tərəfi məsələni gizlətmək istəyib.

Bu qədər açıq-aydın, faktlar və sübutlarla yazılmış hesabatın ardından Rusiya tərəfinin öz israrından dönmək istəməməsini anlamaq mümkün deyil.

### Təyyarə "Pantsir-S" hava hücumundan müdafiə sistemi ilə vurulub

Kənar obyektlərin təsirindən danışarkən vurğulamaq yerinə düşər ki, hazırda Çeçenistanın paytaxtı Qroznının Xankala qəsəbəsində yerləşən hərbi hissədə hadisə ilə bağlı istintaq davam edir. Azərbaycan təyyarəsinə atəşin məhz bu hərbi hissənin ərazisindən açıldığına dair məlumatlar var. KİV-in məlumatına görə, atəş əmri verənlərin və atəş açanların kimliyi Azərbaycan tərəfinə bəllidir. Rusiyalı müstəntiqlər isə atəşin niyə açılmasının səbəblərini müəyyənləşdirmək istəyir, dindirmə zamanı məhz bu suala cavab almağa çalışırlar.

Azərbaycan tərəfinə atəşin hansı silahdan açıldığı da məlumdur. Azərbaycan hökumətindəki mənbə fevralın 4-də "Reuters" agentliyinə bildirib ki, təyyarə Rusiyanın "Pantsir-S" hava hücumundan müdafiə sistemi ilə vurulub. "Azərbaycan tərəfində təyyarədən çıxarılan və beynəlxalq ekspertiza nəticəsində müəyyən edilmiş "Pantsir-S" raketinin fraqmenti var", - deyə mənbə bildirib.

Bu qədər fakt, sübut və dəlillər ortada olduğu halda Rusiyanın məsələni başqa istiqamətə yönəltmək niyyəti, günahı ekipajın üzərinə atmaq cəhdləri acı təəssüf doğurur. Halbuki araşdırmalarda Qazaxıstanla yanaşı, Azərbaycan, Rusiya və istehsalçı ölkə olan Braziliyadan olan mütəxəssislər də iştirak edir. Başqa sözlə, ilkin hesabatda əksini tapmış məqamlar Rusiya tərəfinə də məlumdur.

Azərbaycanın şərtləri, nə istədiyi bəllidir və bunlar ali səviyyədə də elan edilib. Artıq qeyd olunduğu kimi, Azərbaycanın əlində təyyarənin vurulduğu "Pantsir-S" raketlərinin hissələri də var. Sübut bazası formalaşır, faktlar, dəlillər toplanır və beynəlxalq məhkəməyə müraciət etmək istiqamətində hazırlıq işlər aparılır. Bununla belə, Rusiya ilə dialoq üçün qapı açıqdır. Moskva öz günahını açıq şəkildə etiraf edib məsuliyyəti üzərinə götürməlidir. Əks halda Bakı növbəti addımlar atmağı istisna etmir.

***S.İSMAYILZADƏ***

# Ermənistan məlumatları gizlətsə də...

## İtkin düşmüş şəxslərin taleyi Azərbaycanın gündəliyində mühüm yer tutur

Ermənistan torpaqlarımızın işğalı dövründə xalqımıza qarşı çoxsaylı cinayətlər törədib. Azərbaycana qarşı hərbi təcavüz zamanı  dinc insanlar kütləvi qətlə yetirilib, girov götürülüb, eləcə də yaşayış məntəqələri tamamilə dağıdılıb. Eyni zamanda, müharibə dövründə itkin düşmüş minlərlə azərbaycanlının taleyi bugünədək məlum deyil.

**Birinci Qarabağ müharibəsində itkin hesab edilən daha üç şəhid...**

Xatırladaq ki, Birinci Qarabağ müharibəsində 3890 vətəndaşımız Azərbaycan Respublikasının Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyasında itkin düşmüş şəxs kimi qeydiyyata alınıb. 44 günlük Vətən müharibəsində isə 6 vətəndaşımız itkin düşüb.  Torpaqlarımız işğaldan azad edildikdən sonra həmin ərazilərdə kütləvi məzarlıqlar aşkar olunub. Həmin məzarlıqlarda basdırılmış insanlar Birinci Qarabağ müharibəsində itkin düşənlərdir. Onların bəzilərinin kimliyi müəyyənləşdirilərək ailələrinə təhvil verilib və dəfn olunublar. Hazırda işğaldan azad edilmiş ərazilərimizdə bu istiqamətdə davamlı olaraq işlər aparılır.

Bu günlərdə Birinci Qarabağ müharibəsində itkin düşdüyü hesab edilən daha üç nəfərin şəxsiyyəti müəyyənləşdirilib. Onlar bu gün - fevralın 7-də dəfn olunacaqlar. Bu barədə Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyasından verilən məlumata görə, Məmmədov Tərlan Fikrət oğlu Yevlax şəhəri Şəhidlər xiyabanında, Quliyev Müşfiq İbrahim oğlu Cəbrayıl rayonu Horovlu kənd qəbiristanlığında, Tağıyev Elşən Qubad oğlu isə Salyan rayonu Seyidsadıqlı kənd qəbiristanlığında torpağa tapşırılacaq. Dəfn olunan şəhidlərin üçü də hərbçidir.

**Xalqımıza qarşı cinayətlər cəzasız qalmır**

İnsanlığa qarşı törədilən bu cinayətlər cəzasız qalmamalıdır və qalmır. 44 günlük Vətən müharibəsində xalqımıza qarşı cinayətlər törətmiş ermənilərin bir qismi öz cəzalarını aldılar. Eləcə də 2023-cü ilin sentyabr ayında Qarabağda keçirilmiş antiterror tədbirləri zamanı separatçılar diz çökdürüldü, onların başçıları həbs olunaraq Bakıya gətirildilər. Bu canilər törətdikləri cinayətlərə görə cavab verəcəklər. Lakin minlərlə azərbaycanlının taleyi haqqında hələ də məlumat yoxdur. Ermənistan tərəfi bu məlumatları verməlidir. Ermənistana öz öhdəliklərini yerinə yetirmək üçün beynəlxalq səviyyədə təzyiq göstərilməlidir. Çünki itkin düşmüş azərbaycanlıların taleyi haqqında məlumat vermək rəsmi İrəvanın üzərinə götürdüyü öhdəliklər sırasındadır. Bununla belə, itkin düşmüş həmvətənlərimizin taleyi ilə bağlı dövlətimiz bütün imkanlardan istifadə edir.



**Ombudsman: Ermənistan qətlə yetirilmiş şəxslərin basdırıldığı yerlər barədə dəqiq məlumatları təqdim etməlidir**

Məsələ ilə bağlı Azərbaycanın insan hüquqları üzrə müvəkkili (ombudsman) Səbinə Əliyeva bildirib ki, Azərbaycan tərəfindən dəfələrlə edilmiş müraciətlərə baxmayaraq, Ermənistan beynəlxalq hüquqdan irəli gələn öhdəliklərinə əməl etmir, otuz ildən artıq müddətdir əsir və itkin düşmüş, girov götürülmüş şəxslərlə bağlı məlumatları təqdim etməkdən boyun qaçırır. Ombudsman diqqətə çatdırıb ki, işğaldan azad olunmuş ərazilərdəki kütləvi məzarlıqlarda tapılmış insan qalıqlarının eyniləşdirilməsi istiqamətində görülmüş işlər nəticəsində bu günədək 170-ə yaxın azərbaycanlının şəxsiyyəti müəyyən edilib. Bu proses hələ də davam etməkdədir. "Hesab edirik ki, Ermənistan iştirakçısı olduğu beynəlxalq müqavilələrə əsasən üzərinə götürdüyü öhdəlikləri yerinə yetirməli, soydaşlarımızın taleyi barədə məlumatları gizlətməməli, qətlə yetirilmiş şəxslərin basdırıldığı yerlər barədə dəqiq məlumatları təqdim etməlidir", - deyə Səbinə Əliyeva vurğulayıb.

Ümumiyyətlə, itkin düşmüş şəxslərin taleyi Azərbaycanın gündəliyində mühüm yer tutur. Xarici İşlər  Nazirliyinin məlumatına görə, 2023-cü ildən etibarən ölkəmiz bu məsələ ilə bağlı məlumatlılığın artırılması üçün beynəlxalq konfranslar təşkil edir. 2024-cü il oktyabrın 2-3-də Azərbaycan Respublikasının Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyası və Beynəlxalq Qızıl Xaç Komitəsinin birgə təşkilatçılığı ilə Bakıda keçirilən "İtkin düşmüş şəxslər probleminin həlli: ailələrin həqiqəti bilmək hüququnun dəstəklənməsi" mövzusunda beynəlxalq konfransın Bəyannaməsi rəsmi şəkildə BMT Baş Assambleyası və BMT Təhlükəsizlik Şurasının sənədləri kimi yayılıb.

***Nardar BAYRAMLI***

# Korrupsiyaya qarşı mübarizə üzrə Komissiyanın iclası keçirilib



Fevralın 6-da Azərbaycan Respublikasının Korrupsiyaya qarşı mübarizə üzrə Komissiyasının iclası keçirilib. Komissiyanın sədri Samir Nuriyev çıxış edərək Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin korrupsiyaya qarşı mübarizə sahəsində müəyyənləşdirdiyi hədəflərə çatmaq üçün Komissiyanın üzərinə düşən əsas vəzifələri iclas iştirakçılarının diqqətinə çatdırıb. O qeyd edib ki, 2024-cü il ərzində də dövlət idarəçiliyində səmərəliliyin artırılması, şəffaflığın gücləndirilməsi və korrupsiyaya qarşı mübarizə sahəsində davamlı tədbirlər həyata keçirilib.

Bundan başqa, Komissiya sədri bildirib ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə həyata keçirilən sosial-iqtisadi islahatlar nəticəsində əldə edilən nailiyyətlərin möhkəmləndirilməsi baxımından korrupsiyaya qarşı mübarizə mühüm əhəmiyyət daşıyır. Bununla yanaşı, korrupsiyaya qarşı mübarizə tədbirləri dövlət orqanlarının fəaliyyətinin müasir tələblərə uyğun olaraq qurulması və dövlət orqanlarına ictimai etimadın gücləndirilməsi baxımından da zəruridir. Eləcə də dövlət orqanlarının fəaliyyətində hesabatlılığın və məsuliyyətin artırılması, dövlət əmlakının düzgün idarə olunması sahəsində yeni çağırışlar da korrupsiyaya qarşı mübarizə fəaliyyətinin sistemli və davamlı şəkildə aparılmasını şərtləndirir.

İclasda Komissiyanın Azərbaycan Respublikasının Milli Məclisi tərəfindən seçilmiş yeni üzvləri təqdim olunub, korrupsiyaya qarşı mübarizə sahəsində beynəlxalq əməkdaşlıq məsələləri də müzakirə edilib. Bu əməkdaşlıq çərçivəsində Korrupsiyaya qarşı Mübarizə Aparan Dövlətlər Qrupunun (GRECO) 5-ci dəyərləndirmə raundu çərçivəsində verdiyi tövsiyələrlə bağlı görülmüş işlər nəzərdən keçirilib. Komissiyanın Reqlamenti və növbəti dövr üçün iş planı təsdiq edilib.

# USAID -in “qara” üzü - LGBT, çevrilişlər, korrupsiya...

## Təşkilatın post-sovet məkanındakı fəaliyyəti

USAID -in layihələrinin dayandırılması ilə bağlı qərar, eləcə də hesabatların açıqlanması bir sıra məsələlərə aydınlıq gətirdi. Məlum oldu ki, Bayden hakimiyyətinin “təsir imkanları” axtarışları hər zaman fərqli istiqamətlərə, fərqli vasitələrə əsaslanıb. Xüsusilə, xarici ölkələrdə xəyanətkar siyasi qruplarla əməkdaşlıq kontekstində, vətəndaş cəmiyyəti sıralarında “müttəfiq” müəyyənləşdirilməsində, nəzarəti altındakı KİV üzərindən çirkin planların həyata keçirilməsində USAID kimi üzdə “humanitar”, alt qatda isə korrupsiya və siyasi oyunlarla məşğul olan qurumlardan istifadə olunub. “Yumşaq güc” siyasətinin əsas mərkəzi kimi çıxış edən USAID və başqa təşkilatlar xüsusilə, pots-sovet regionuna, o cümlədən Cənubi Qafqaza yönəlik planları ilə diqqət çəkib. Bu mərkəzlərin nəzarətində olan, əmrlərini yerinə yetirən feminist qruplar, internet resurslar mərkəzləşdirilmiş “qrant şəbəkəsi” tərəfindən idarə olunublar.

### Təlim adı altında çevriliş hazırlıqları

Vurğulandığı kimi, USAID xüsusilə, post-sovet regionuna nəzərən “yumşaq güc” vasitəsi qismində təsir rıçaqı kimi xarakterizə olunub. Məsələn, hələ bir neçə il öncə, konkret 2023-cü ildə Gürcüstanda ortaya çıxan faktlar bu mənada örnək nümunələrdən sayılır. USAID Tbilisidə “yerli QHT-lərlə birgə” fərqli “mövzu”larda təlimlər təşkil edirdi, amma sonradan Gürcüstanın hüquq-mühafizə orqanlarının yaydıqları məlumatlarda bəlli olmuşdu ki, təlim iştirakçılarına “dövlət çevrilişi hazırlamağın metodları” öyrədilib. Hətta Gürcüstan parlamentinin sədri Şalva Papuaşvili bildirmişdi ki, bu, Amerikanın Gürcüstana yardımı tarixində qara gündür: “ USAID Amerika xalqının pullarının niyə başqa ölkəyə iğtişaşları qızışdırmaq, iğtişaşlar planlaşdıran və zorakılıq törədən qrupları hazırlamaq üçün getdiyini izah etməlidir”.






Göründüyü kimi illərdir ki, USAID özünün hərəkət trayektoriyasını tam dəyişdirməsə də, müəyyən “korrektələr” olunub. Məsələn, XXI əsrin ilk illərində konkret siyasi partiyalara “isti münasibət” bəlli edilirdisə və həmin partiyaların vəzifəli şəxslərinə bağlı QHT-lər maliyyələşdirilirdisə, siyasi qüvvələrin stimullaşdırılması bu yolla icra olunurdusa, sonradan bəzi yerdəyişmələr aparıldı. Bu mənzərə Azərbaycana da tanış idi - ABŞ-a bağlı institutlar vaxtilə bəlli partiyalara bağlı QHT-ləri aktiv şəkildə maliyyələşdirir, milyonlarla vəsait ayırırdı.

İndiki halda isə bu “yardım”, “humanitar aksiya” kimi pərdələrlə pərdələnir. Daha çox “feminizm”, LGBT anlayışını özünün spekulyasiya vasitəsinə çevirən USAID bu yolla həm beyinləri zəhərləyir, qarşıdurmalar yaradır, cəmiyyəti milli kimliyindən uzaq salmağa çalışır, həm də özünün çirkin planlarını həyata keçirməyə niyyətlənir.

### Gürcüstan təxribatları baş tutmadı

Vurğulandığı kimi, proses son illərdə daha fərqli məcralara yönəldilib. Məsələn, Gürcüstan Baş naziri İrakli Kobaxidze bildirib ki, USAID-in maliyyəsi real məqsədlər üçün, xeyriyyə məqsədləri üçün istifadə edilməyib. Onun sözlərinə görə, bu gün ABŞ administrasiyası rəsmən Gürcüstan hökumətinin dediklərini təkrarlayır. “2023-cü ilin yazından bəri bizim dediklərimizi bu gün ABŞ hökuməti rəsmi olaraq təkrarlayır. Biz deyirdik ki, USAID-in maliyyəsi real məqsədlər üçün, xeyriyyə məqsədləri üçün istifadə edilməyib. Bütün bunlar ölkələrdə, xüsusilə Gürcüstanda inqilablar təşkil etmək, narahatlıq yaratmaq, sabitliyi pozmaq və s. məqsədlər üçün istifadə edilib. Biz USAID-in fəaliyyətinin üç aylıq dayandırılmasına şadıq. Bizim üçün əsas odur ki, bu vəziyyət belə də qalsın. USAID-in bir daha heç vaxt ölkəmizdə sabitliyi pozmağa cəhd etməməsi, məsələn, səsvermə nəticələrinin saxtalaşdırılmasına çalışmaması və ya birbaşa inqilabi prosesləri dəstəkləməməsi çox vacibdir. Ümid edirik ki, təşkilatın işinin üç aylıq dayandırılması mexanizmi qüvvədə qalacaq”.

Gürcüstanda son aylarda baş verən siyasi gərginliklərin də məhz Qərb mənbələrindən gələn maliyyə vasitəsilə qızışdırılması haqda faktlar mövcud idi. Gürcüstan parlamentinin sədri Şalva Papuaşvili feysbuk səhifəsində etdiyi paylaşımda bildirib ki, Gürcüstanın qeyri-hökumət təşkilatları 2024-cü ildə ölkədə parlament seçkiləri ərəfəsində USAID-dən 41 milyon dollardan çox vəsait alıb. “USAID siyasi korrupsiya vasitəsilə Gürcüstanda seçkilərə 41,7 milyon dollar xərcləyib. ABŞ və Gürcüstan əhalisinin nisbətinə görə hesabladıqda, bu, ABŞ-da seçkilərə xaricdən xərclənən 3,78 milyard dollar təşkil edərdi. Ölkələrin ÜDM-ni əsas götürsək, bu müqayisə daha təəccüblü olacaq”.

Parlamentin sədri Gürcüstanda seçkiləri müntəzəm olaraq pozmağa çalışan təşkilatlara on milyonlarla dolların necə ayrıldığına aydınlıq gətirilməsini tələb edib. “Başqa bir ölkədə seçkilərə 41,7 milyon dollar xərcləyib həmin ölkənin əhalisi qarşısında heç bir məsuliyyət hiss etməmək mümkün deyil”.

### Post-sovetdə qaranlıq fəaliyyət

USAID Rusiyada 2012-ci ilin oktybar ayında bağlanıb. Bununla bağlı sosial platformada bildirən Rusiya XİN-in rəsmisi Mariya Zaxarova qeyd edib ki, Rusiyada USAID 2012-ci ilin oktyabrında “liberal səs-küy altında” bağlanıb. Zaxarova əlavə edib ki, qurumun rəhbərliyi Rusiyada “göyqurşağı gündəmi” yaratmaq üçün əhəmiyyəftli səylər göstərirdi, amma Rusiya Federasiyasında LGBT hərəkatı ekstremist qrup kimi tanınıb və qadağan edilib. Zaxarova bildirib ki, agentliyin birmənalı olaraq “LGBT-də perspektivlər - Fəaliyyətlər” adlı proqram sənədi də dərc edilib və bu sənəddə məqsədlərdən biri bu sahədə maksimum inklüzivliyə və açıqlığa nail olmaq kimi müəyyənləşib.

USAID Ermənistanda 1992-ci ildə fəaliyyətə başlayıb və 2005-ci ilə qədər yalnız humanitar yardımlar göstərib. Agentlik 2013-cü ildə dövlətlə birbaşa əməkdaşlığa keçib. Ermənistanda media və təhsil proqramlarının hazırlanması ilə məşğul olan bir çox KİV və QHT Dövlət Departamentindən layihələr üçün vəsait alıb.

USAID, həmçinin vaxtilə Azərbaycanda bəzi gənclər təşkilatlarını maliyyələşdirib, hökumət əleyhinə qeyri-qanuni aksiyalar təşkil edib. 2014-cü ildə bu qurumun Azərbaycanda “müstəqil medianın inkişafı” üçün fantastik həcmdə - 2,4 milyon dollar məbləğində qrant elan etməsi bunun bariz nümunəsidir. Həmin il ABŞ Milli Demokratiya İnstitutunun (MDİ/NDİ) Bakıdakı nümayəndəliyinin sabiq rəhbəri özünün bank hesabından təqribən iki milyon dollar vəsait çıxararaq bəzi QHT-lərə, konkret şəxslərə paylamışdı. Lakin Azərbaycan güclü dövlət kimi, ölkəmizdə mövcud olan xalq-iqtidar birliyi və həmrəyliyi sayəsində bu təşkilatın ölkəmizlə bağlı planlarını iflasa uğratmışdı.




### USAID -in “Maydan” sərgüzəştləri - senator Kennedi açıqladı

USAID-in fəaliyyətində son illər Ukrayna qırmızı xətlə keçir. Qurumun layihələrinin dayandırılmasından sonra Ukraynanın yüzdən çox mədəniyyət və media təşkilatı öz resurslarını itirib. “Pais” nəşrinin yazdığına görə, iki korrupsiya təhqiqat orqanı - Slidstvo və Bihus xüsusilə ağır zərbə alıb, çünki bu layihələrdə Amerikanın maliyyələşdirmə payı 80 faizdən çox olub. Onların Ukrayna hakimiyyətinin fəaliyyətinə böyük təsir göstərdiyi iddia edilir.




Yaxın vaxtlarda səhiyyə naziri postuna təsdiqlənəcəyi gözlənilən senator Robert Kennedi də USAID-in Maydanla əlaqəsi barədə danışıb. O, jurnalist Taker Karlsonla müsahibəsində deyib ki, MKİ-nin tərəfdaşı olan USAID Ukraynadakı iğtişaşların maliyyələşdirilməsinə beş milyard dollar sərmayə qoyub. “Bu iğtişaşlar Ukraynanın demokratik yolla seçilmiş hökumətinə qarşı dövlət çevrilişinə səbəb oldu”. O vurğulayıb ki, MKİ 1947-1997-ci illər arasında, təxminən 83 hökuməti devirib. Bu, yer üzündəki hökumətlərin üçdə biri deməkdir və onların əksəriyyəti demokratik idi. Demək ki, məsələ demokratiya ilə bağlı deyil.

USAID uzun müddətdir Ukraynanın fəal sponsoru olub, təkcə 2022-2024-cü illərdə humanitar yardım, inkişaf yardımı və birbaşa büdcə dəstəyinə 38 milyard dollar xərcləyib.

***P.SADAYOĞLU***

# Trampın sülh planı...

## Rusiya-Ukrayna müharibəsi ilə bağlı plan Münhendə açıqlana bilər

Rusiya-Ukrayna müharibəsində rəsmi Kiyev hər hansı irəliləyişə nail ola bilmir. Qərbin hərbi yardımına baxmayaraq, Rusiya ordusu Ukrayna ərazilərini ələ keçirməkdə davam edir. Müharibədə Kiyevə ən çox hərbi dəstək verən dövlət isə ABŞ-dır. Lakin Bayden administrasiyanın hakimiyyətdən getməsini nəzərə alsaq, Ukraynanın çətin sınaqlarla üz-üzə qaldığını demək mümkündür. Çünki yeni Prezident Donald Tramp bu müharibənin tezliklə dayandırılacağını bəyan edib.

Yeri gəlmişkən, Donald Tramp dövlət başçısı kimi fəaliyyətə başlamadan öncə Parisdə Ukrayna Prezidenti Zelenski ilə keçirdiyi görüşdən sonra Ukrayna və Rusiyanı atəşkəsə və bunun üçün şərtləri açıqlamağa çağırmışdı. O, sosial mediadakı paylaşımında yazmışdı ki, Ukrayna münaqişəni dayandırmaq üçün Rusiya ilə razılaşmaq istəyir. V.Zelenski isə görüşlə bağlı “X” səhifəsində qeyd edib ki, Kiyev müharibənin tez və ədalətli şəkildə bitməsini istəyir: “Güc vasitəsilə sülh mümkündür. Birgə işi davam etdirməklə bağlı razılıq əldə olunub”.

Hazırda Kiyev ABŞ-ın hərbi dəstəyini itirmək təhlükəsi ilə üz-üzə qalıb. Xatırladaq ki, Tramp hələ seçki kampaniyası zamanı bu müharibənin tezliklə dayandırılması haqqında fikirlərini dəfələrlə bildirmiş, Zelenski ilə bu mövzuda müzakirələr də aparmışdı. Tramp müharibəni 24 saat ərzində dayandıracağını da bəyan etmişdi. Lakin prezident kimi fəaliyyətə başladığı yanvarın 20-dən indiyədək müharibəni dayandıra bilməyib. Bununla belə, Tramp mövqeyindən geri çəkilməyib.

### Ukraynanın təbii sərvətləri kimə çatacaq?

Belə ki, “Bloomberg” agentliyinin öz mənbələrinə istinadən yaydığı məlumata əsasən ABŞ Prezidenti Donald Trampın Ukrayna üzrə xüsusi nümayəndəsi Keyt Kelloq Münhen Təhlükəsizlik Konfransında Rusiyanın Ukraynaya qarşı müharibəsinin başa çatdırılması planını təqdim etməlidir. Trampın Ukraynadakı müharibənin bitməsi planında hansı müddəaların yer aldığı məlum deyil. Bundan əvvəl isə Kelloq “X” sosial şəbəkəsində Münhen konfransında iştirakı və ABŞ-ın müttəfiqləri ilə Ukraynada sülh nizamlanması mövzusunu müzakirə etmək niyyətində olduğunu bildirib. “The Wall Street Journal” qəzetinin isə məlumatına görə, Tramp Kelloqa Rusiya-Ukrayna münaqişəsini 100 gün ərzində həll etməyi tapşırıb.

Bugünlərdə “Bild” nəşri də maraqlı məlumat yayıb. Bu məlumata görə, Donald Tramp ABŞ-ın yardımı qarşılığında Ukraynadan nadir metalları istəyir. Ukraynanın ümumilikdə 6,7 milyard avro dəyərində litium, kobalt, titan və başqa nadir filiz ehtiyatları var. Tramp administrasiyası Kiyevlə bu metalların ABŞ-yə tədarükünü təmin edən müqavilə bağlamaq niyyətindədir. O, Vaşinqtonda jurnalistlərə açıqlamasında bildirib: “Onlara verdiklərimizin qarşılığında bunu istəyirik”.

“Financial times” isə yazır ki, rəsmi Kiyev Donald Trampa əsas təbii ehtiyatlar üzrə əməkdaşlıq üçün “xüsusi şərait” təklif edib: “Əlbəttə, biz Amerika ilə işləməyə hazırıq”. Bununla yanaşı, Ukrayna hakimiyyəti ölkənin təbii ehtiyatlarının Rusiyadan müdafiəsinin vacibliyini vurğulayıb. Ukrayna Prezidenti Volodimir Zelenski Trampın təbii sərvətlərlə bağlı fikirlərinə hələ ki cavab verməyib.

Ümumiyyətlə, ərazilərin azad edilməsi, qaçqınların qayıtması və başqa bu kimi məsələlər baxımından Ukraynanın elə ciddi uğuru hiss olunmur. Düzdür, Rusiyanın da uğurlarını davamlı saymaq məntiqli olmaz. Çünki rus qoşunlarının sıralarında başqa dövlətlərin, o cümlədən Şimali Koreya əsgərlərinin döyüşdüyü müşahidə olunub. Bu o deməkdir ki, onun canlı qüvvə baxımından ciddi problemi var. Bu isə perspektivdə tutduğu əraziləri əldə saxlamağın Rusiyaya elə də asan başa gəlməyəcəyini ehtimal etməyə əsas verir. Başqa sözlə, onun müharibəni davam etdirmək üçün resurslarının kifayət etməyəcəyi də istisna olunmur. Bunun üçün, ilk növbədə, Ukraynaya yardım başlıca amil sayılır.






### Kiyev ABŞ-ın vəd etdiyi 177 milyard dolların 75 milyardını alıb

ABŞ-ın müharibə zamanı Kiyevə etdiyi yardımlarla bağlı müxtəlif rəqəmlər səslənir. V.Zelenski bu məsələyə aydınlıq gətirərək bildirib: “Biz ABŞ-ın vəd etdiyi 177 milyard dolların 75 milyardını almışıq. Bəziləri guya Ukraynanın Ştatlardan ordunun dəstəklənməsi üçün 200 milyard dollar aldığını iddia edir. Bu, həqiqətə uyğun deyil. Mən qalan pulların hara xərcləndiyini bilmirəm”. Bəs Ukraynaya Rusiya üzərində qələbə çalmaq üçün ayrılan maliyyə vəsaiti hara xərclənib? Məsələ ilə bağlı D.Tramp bəyan edib ki, sələfi Bayden Avropa ölkələrindən Ukraynaya ayrılan maliyyənin artırılmasını tələb etməyib, sadəcə olaraq ABŞ vergi ödəyicilərinin pullarını paylayıb: “Biz Ukraynaya az qala 300 milyard dollar yardım etdik, Avropa isə 200 milyard dollardan daha az verib. Niyə? Çünki Bayden onlardan heç vaxt pul istəməyib, sadəcə pulumuzu paylayıb”.

Belə bir şəraitdə vəziyyətin hansı məcrada inkişaf edəcəyi yaxın zamanlarda aydınlaşmalıdır. Çünki bəzi mənbələr hazırda Tramp-Putin görüşünə hazırlıq getdiyini bildirir. Bu görüş müharibənin taleyinin müəyyənləşməsində həlledici ola bilər.

***N.BAYRAMLI***

# Qlobal ticarət müharibəsinin astanasında...

## Yeni nizamın oyun qaydaları dəyişir




Yeni dünya nizamının formalaşması fonunda güc mərkəzlərinin qlobal miqyasda özlərinin təsir imkanlarının daha da artırılması uğrunda açıq və gizli formalarda apardıqları mübarizənin getdikcə şiddətləndiyinin şahidi oluruq. Əvvəllər əsasən ənənəvi hərbi toqquşmalarla, güc nümayişi ilə səciyyələnən bu rəqabətə indi ticarət müharibəsi də əlavə olunub. ABŞ-da Respublikaçılar Partiyasının təmsilçisi Donald Trampın yanvarın 20-də Ağ Evə qayıdışından sonra artıq güc mərkəzləri arasında ticarət müharibəsinə start verilib. Bu soyuq müharibənin əsasən ABŞ, Çin, Rusiya və Avropa İttifaqı (Aİ) arasında gedəcəyi təxmin edilir. Burada kimin qalib olacağını söyləmək hələ tezdir. Bununla belə, çətin keçəcək rəqabət ölkələrin çökdürülməsinədək davam edə bilər. Aydın məsələdir ki, ticarət müharibəsindən bütün dünya təsirlənəcək və əks-təsirlər kifayət qədər ciddi olacaq.

**ABŞ-dan Kanada, Meksika və Çin məhsullarına tətbiq olunan rüsumlar**

Donald Tramp yeni rüsumların anonsunu hələ seçkiqabağı təbliğat kampaniyası zamanı vermişdi. Ağ Evin yeni sahibinin qənaətinə görə, güclü iqtisadi potensialı ABŞ-nin böyük üstünlüyüdür və bundan istifadə olunması ölkənin qanuni haqqıdır. Donalq Tramp Ağ Evin bir sıra dövlətlərə əvəzsiz yardımlar etməsinin, ölkəyə gətirilən mallara aşağı rüsumlar tətbiqinin məntiqinin başa düşülmədiyini bir neçə dəfə dilə gətirib. Beləliklə, Vaşinqtonun yeni startegiyasını bəyan edən və ABŞ-ın bundan sonra dünya üçün "ianələr paylayan axmaq ölkə" olmayacağı fikrini gündəmə gətirən D.Trampın Ağ Evə gəlişinin ilk günlərində imzaladığı sərəncamların bir çoxu rüsumlarla bağlı olub. O cümlədən Kanada, Meksika və Çindən idxal edilən məhsullara rüsum tətbiqi barədə 3 sərəncam imzalanıb. Verilən məlumata görə, sərəncamlarda Kanada və Meksikadan idxal olunan məhsullara 25 faiz, Çindən idxal edilən məhsullara isə 10 faiz tarif tətbiq ediləcəyi göstərilir. İstisna yalnız neftlə bağlı olub. Belə ki, benzin və soba yanacağının qiymətlərində artım ehtimalını minimuma endirmək üçün Kanadadan enerji idxalına tariflər 10 faiz azaldılıb. Prezidentin ticarət siyasəti üzrə müşaviri Piter Navarro bildirib ki, əgər Kanada, Meksika və Çin cavab tədbirləri görərlərsə, Vaşinqton bu 3 ölkənin məhsullarına rüsumları daha da artıra bilər. D.Tramp bəhs olunan qərarın qanunsuz miqrasiya ilə mübarizə çərçivəsində, həmçinin ölkəyə narkotik gətirilməsinin qarşısının alınması məqsədilə verildiyini bildirsə də, ortada siyasi məqsədlərin olduğu heç kəsdə şübhə doğurmur.

Ağ Evdən gələn açıqlamalardan o qənaət hasil olur ki, yaxın vaxtlarda ticarət müharibəsinə cəlb olunacaq ölkələrin siyahısının genişlənəcəyi gözlənilir. Panama kanalı vasitəsilə rəqiblərinə, xüusilə də Çinə həmlə etmək ABŞ-in yeni rəhbərinin prioritetləri sırasındadır. D.Tramp Karib dənizi ilə Sakit okean arasında körpü sayılan Panama kanalına nəzarəti ələ keçirməyi hədəfləyib. Hazırda kanal ətrafındakı bir sıra limanları Çin şirkətləri idarə edir və bu fəaliyyətlər Pekinə böyük həcmlərdə gəlir gətirir. Tramp kanalın zamanında ABŞ tərəfində inşa edildiyini əsas gətirməklə buradan keçən ölkəsinə məxsus ticarət gəmilərinə yüksək rüsumlar tətbiq edilməsini ədalətsiz sayır. Onun qənaətinə görə bu ədalətsizliyə son qoyulmalı və Panama kanalına ABŞ-ın nəzarəti təmin olunmalıdır. Qeyd edək ki, dünya üzrə ticarətdə Panama kanalının payı 5 faizdir. Buradan daha çox sayda məhz ABŞ gəmiləri keçir. Sıralamada ikinci yerdə Çin, üçüncü yerdə isə Yaponiya gəlir. Kanal 1999-cu ildə Panama dövlətinin nəzarətinə keçib. 2024-cü ildə Panama kanalından əldə edilən gəlir 5 milyard dollar olub. Öz növbəsində Panama prezidenti kanalın ABŞ-ın nəzarətinə verilməyəcəyini bildirib. Bununla belə, Ağ Ev niyyətindən dönmək fikrində deyil. Vaşinqton, həmçinin Panama dövləti ilə mümkün razılaşmalara gedə biləcəyini də anons edib. Əsas məqsəd Çin şirkətlərini buradan uzaqlaşdırmaqdır. Lakin bunun asan başa gələcəyini düşünmək sadəlövhlük olardı. Pekin də burada qalmaqda israrlıdır. Kanalda mövcud olmaq Çin üçün həm iqtisadi, həm də geosiyasi önəm daşıyır.

**Kanada və Meksikadan gecikməyən cavab**

Təbii ki, yeni rüsumlar heç bir ölkə üçün arzuedilən deyil. Kanadanın baş naziri Castin Trüdo ABŞ Prezidenti Donald Trampın rüsum tətbiqinə cavab olaraq ölkəsinin 155 milyard dollarlıq ABŞ mallarına 25 faiz rüsum tətbiq edəcəyini açıqlayıb. Hökumət başçısı bildirib ki, tarif paketinə 4 fevraldan etibarən 30 milyard dollarlıq mallara dərhal, 125 milyard dollarlıq məhsullara isə 21 gün ərzində əlavə rüsumlar daxildir. Baş nazir xalqı marketlərdən ABŞ məhsulları yerinə Kanada məhsulları almağa çağırıb.

Eyni zamanda, Meksika Prezidenti Klaudia Şeynbaum Trampın 25 faizlik rüsum qərarına cavab olaraq hökumətə Meksikanın maraqlarını müdafiə etmək üçün rüsum və qeyri-rüsum tədbirlərini özündə birləşdirən "B Planı"nı həyata keçirməyi tapşırdığını deyib. Rüsumlarla bağlı digər detallar açıqlanmayıb.

Bu arada Meksika və ABŞ-ın idxal məhsullarına rüsum tətbiqini bir ay təxirə salmaq barədə razılıq əldə olunduğu barədə xəbərlər gəlib. Verilən məlumata görə, Vaşinqtonun "güzəşti" qarşılığında Meksika prezidenti Klaudia Şeynbaum narkotik qaçaqmalçılığı ilə mübarizə üçün ABŞ-la sərhəddə milli qvardiyasının 10 min üzvünü yerləşdirməyi planlaşdırdığını açıqlayıb. Hər iki ölkə prezidenti bu bir ay ərzində rüsum məsələsi ilə bağlı danışıqlar aparmağa qərar veriblər.

**Çinin ehtiyat tədbirləri və ÜTT-yə şikayət anonsu**

Vaşinqton rüsum qərarını elan edəndən sonra Çinin Xarici İşlər və Kommersiya nazirlikləri açıqlama yayaraq, ölkənin qanuni hüquq və mənafelərini qorumaq üçün lazımi əks tədbirləri görəcəyini bildirib. Rəsmi Pekin ABŞ-ın əlavə rüsumlar tətbiq etməsi ilə əlaqədar olaraq Ümumdünya Ticarət Təşkilatına (ÜTT) şikayət etməyi planlaşdırır. Bu barədə Çinin Ticarət Nazirliyi məlumat yayıb. Nazirlik hesab edir ki, rəsmi Vaşinqton əlavə rüsumlar tətbiq etməklə ÜTT-nin qaydalarını ciddi şəkildə pozub. Ö növbəsində Pekin də cavab olaraq ABŞ-dan idxal olunan mallara əlavə rüsum tətbiq edəcək. Artıq əlavə rüsumların həcmi də açıqlanıb. Söhbət ABŞ-dan idxal olunan bəzi məhsullara 10-15 faizlik əlavə rüsumlar tətbiqindən gedir. Çinin Maliyyə Nazirliyinin məlumatına əsasən, qərar fevralın 10-dan qüvvəyə minəcək. Əlavə idxal rüsumu tətbiq olunacaq məhsullara xam neft, kənd təsərrüfatı texnikası, sıxılmış maye qaz, bəzi avtomobillər daxildir.

Eyni zamanda, rəsmi Pekin startı verilən ticarət müharibəsi fonunda müəyyən ehtiyat tədbirlərinin görlməsində də qərarlıdır. Çinin Kommersiya Nazirliyi və Baş Gömrük Administrasiyası nadir metalların, o cümlədən volfram, tellur, bismut, molibden və indiumun ixracına fevralın 4-dən məhdudiyyət tətbiq etməyə başlayıb. Kommersiya Nazirliyinin məsələyə dair açıqlamasına əsasən, qərar ölkənin milli təhlükəsizliyini və mənfəətini qorumaq, habelə silahların yayılmasının qarşısını almaq kimi beynəlxalq öhdəliyi yerinə yetirmək, qlobal istehsal və təchizat zəncirinin təhlükəsizliyini və sabitliyini təmin etmək məqsədi ilə qəbul edilib.



Paralel olaraq, ikili təyinatlı məhsulların ixracına da məhdudiyyət qoyulub. Nazirlik 25 nadir metal məhsulu və istehsal texnologiyası ilə əlaqədar ixrac nəzarətinin həyata keçirildiyini elan edib. Qurumun açıqlamasında deyilir ki, Çin müvafiq ölkələri məsələyə dair əvvəlcədən məlumatlandırıb. Volfram və digər əlaqəli mallara ixrac nəzarətinin tətbiqi ümumi qəbul edilmiş beynəlxalq təcrübədir. Müvafiq qaydalara əməl olunarsa, ixraca icazə veriləcək.

Qeyd edək ki, sözügedən nadir metallar müdafiə sənayesi məhsulları, "yaşıl enerji" avadanlığı, smartfon, elektrik avtomobillərinin batareyalarının istehsalı da daxil olmaqla bir çox sahə üçün vacib minerallardır. Ekspertlər hesab edir ki, Çinin ixraca nəzarəti artırmaq qərarı Donald Tramp administrasiyasının Çin mallarına 10 faizlik əlavə idxal rüsumları tətbiq etməsinə cavabdır. Bu qərarın dünya bazarında sözügedən metalların və onlardan hazırlanan məhsulların qiymətlərinin artmasına səbəb olacağı proqnozlaşdırılır. Bismut istehsalını 1997-ci ildə, volfram hasılatını isə 2015-ci ildən dayandıran ABŞ idxaldan asılıdır.

Çin hökuməti Vaşinqtonun rüsum qərarına cavab olaraq, fevralın 10-dan ABŞ-dan idxal olunan bəzi məhsullara, o cümlədən kömür, xam neft, kənd təsərrüfatı texnikası, sıxılmış maye qaza 10-15 faizlik əlavə rüsumlar tətbiq edəcəyini açıqlayıb. Pekin bundan başqa, Çin müəssisələri ilə adi əməliyyatları dayandırmaqla və Çin firmalarına qarşı ayrı-seçkilik tədbirləri görməklə normal bazar əməliyyatları prinsipini pozduğu üçün ABŞ-ın "PVH Group" və "Illumina" şirkətlərini etibarsız müəssisələr siyahısına salıb.

**Aİ də təhdidləri cavabsız qoymayacaq**

Startı verilən ticarət müharibəsi ilə əlaqədar Avropa İttifaqında (Aİ) da ciddi narahatlıq yaşanır. D.Tramp həmçinin Aİ-dən gələn mallara idxal rüsumları tətbiq edəcəyini bildirib. "The Telegraph" qəzetinin məlumatına görə, Ağ Ev 10 faiz həcmində tariflər müəyyən edə bilər.

Vaşinqton Avropa mallarına rüsumlar tətbiq edərsə, Aİ ABŞ-in ən böyük İT şirkətlərinə qarşı cavab tədbirləri görə bilər. Bu barədə "Financial Times" mənbələrə istinadən yazıb. "Avropa İttifaqı ABŞ Prezidenti Donald Tramp bloka qarşı rüsum tətbiq etmək təhdidlərini həyata keçirərsə, Silisium Vadisinə qarşı cavab tədbirləri planlaşdırır", - deyə məlumatda qeyd olunub.

Nəşrin həmsöhbətlərinin sözlərinə görə, Avropa Komissiyası "məcburiyyətə qarşı alət" tətbiq edə bilər. Bu da Amerika xidmət sektoruna, xüsusilə də ən böyük İT şirkətlərinin fəaliyyətinə təsir edəcək tədbirlərin tətbiqinə imkan verəcək. Avropa İttifaqı "bütün variantlar"ı nəzərdən keçirir. Avropa Komissiyasının sədri Ursula fon der Lyayen də bəyan edib ki, Aİ Avropa mallarının ABŞ-a idxalına rüsumların mümkün tətbiqinə hazırlaşıb, praqmatik siyasət həyata keçirəcək və lazım gələrsə danışıqlar aparacaq.

*Mübariz FEYİZLİ*

# Zəngəzur dəhlizi diqqət mərkəzindədir

## ABŞ-ın Cənubi Qafqaz siyasətində ciddi dəyişikliklərin olacağı istisna edilmir

Son illərdə qlobal dünyada baş verən iqtisadi proseslər hərbi-siyasi emosiyaları arxa fonda qoyub - ABŞ-ın yeni prezidenti Donald Trampın öz səlahiyyətlərinin icrasına başladıqdan dərhal sonra imzaladığı sərəncamlar və səsləndirdiyi bəyanatlar bunu təsdiqləyir. Hazırda Panama kanalı ətrafında baş verənlər birmənalı qarşılanmasa da, bir sıra ekspertlər bunu beynəlxalq iqtisadi transformasiyanın yeni mərhələsi hesab edirlər.

Hazırkı qlobal iqtisadi proseslər fonunda beynəlxalq nəqliyyat-kommunikasiya xətləri xüsusi əhəmiyyət kəsb edir. Müxtəlif regionları bir-birinə bağlayan xətlər hər zaman beynəlxalq və regional güc mərkəzlərinin diqqət mərkəzində olub, geoiqtisadi maraqlarının təmin olunmasına yol açıb. Qərb ilə Şərqi bir-birinə birləşdirən alternativ kommunikasiya xətti - Zəngəzur dəhlizi də beynəlxalq gündəmdə müzakirə olunan prioritet iqtisadi məsələlərdən biridir.

Azərbaycan və Türkiyənin layihəsi olan bu dəhliz bir neçə mühüm geoiqtisadi marağa xidmət edir. Birincisi, Türkiyə, Cənubi Qafqaz və Mərkəzi Asiya həm coğrafi, həm də iqtisadi cəhətdən bir-birinə birləşir. İkincisi, bu dəhliz üzərindən Yaxın Şərq və Şərqi Aralıq dənizinə çıxış imkanları əldə edilir. Üçüncüsü, Avropa ilə Çin arasında logistik yüklərin daşınmasının rentabelliyi təmin olunur və "Orta Dəhliz"in tam şəkildə fəaliyyətinə yol açılır.

### "Tramp Azərbaycanın həyata keçirdiyi layihələrin əhəmiyyətini yaxşı bilir"

Son beş ildə Azərbaycanın yaratdığı reallıq regionda yeni iqtisadi ab-hava formalaşdırıb. Bu nöqteyi-nəzərdən Trampın ikinci hakimiyyəti dövründə ABŞ-ın Cənubi Qafqaz siyasətində ciddi dəyişikliklərin olacağı istisna deyil. Yeni administrasiya Cənubi Qafqazın nə dərəcədə iqtisadi əhəmiyyət daşıdığını, xüsusilə Azərbaycanın iqtisadi potensialını çox yaxşı bilir.

Məsələ ilə bağlı politoloq İlqar Vəlizadə "Yeni Azərbaycan" qəzetinə şərhində qeyd edib ki, Tramp administrasiyasının xarici siyasət strategiyasında Cənubi Qafqaz da prioritet regionlar siyahısına daxil edilib. "ABŞ beynəlxalq güc mərkəzi olduğuna görə, onun beynəlxalq müstəvidə atacağı addımlar Cənubi Qafqaza təsirsiz ötüşməyəcək. Xüsusilə, qeyd etmək lazımdır ki, son illər ərzində Azərbaycan regionda böyük iqtisadi-logistik və enerji layihələri həyata keçirir. Bu layihələrin strateji əhəmiyyəti bütün iştirakçı ölkələr üçün önəmlidir. Tramp da Azərbaycan tərəfindən həyata keçirilən layihələrin əhəmiyyətini və bunun ABŞ-a nə dərəcədə mənfəət qazandıra biləcəyini çox yaxşı bilir".

Politoloqun sözlərinə görə, "Orta Dəhliz" Vaşinqtonun Cənubi Qafqaza diqqətini artırıb: "Bu dəhliz ABŞ-a Mərkəzi Asiyaya çıxış imkanları qazandıra bilər. Vaşinqton bu dəhliz vasitəsilə Mərkəzi Asiya ölkələrindən xammal və enerji məhsulları, eləcə də strateji əhəmiyyətə malik olan məhsullar tədarük edə bilər, həmçinin öz məhsullarını da region ölkələrinə ixrac etmək imkanı əldə etmiş olar. Əgər ABŞ "Orta Dəhliz"in iştirakçı ölkəsinə çevrilərsə, Vaşinqton həm Cənubi Qafqazda, həm də Mərkəzi Asiyada böyük investisiya layihələri həyata keçirəcək".




### Çinin də Zəngəzur dəhlizinə marağı böyükdür

İ.Vəlizadə vurğulayıb ki, digər beynəlxalq güc mərkəzləri də, xüsusilə Çin də Zəngəzur dəhlizinə maraq göstərir və bu kommunikasiyada üstün mövqe tutmaq niyyətlərini gizlətmirlər. "Hesab edirəm ki, bu dəhlizdə geniş imkanlara sahib olmaq uğrunda ABŞ ilə Çin arasında geoiqtisadi rəqabətin baş verməsi mümkündür. Vaşinqton qətiyyən dəhlizin Çinin nəzarətinə keçməsini istəməz. Buna görə də Çini qabaqlamaq üçün müəyyən addımlar atacaq. Nəticə etibarı ilə bu, Zəngəzur dəhlizinin əhəmiyyətini təkcə regional deyil, həmçinin beynəlxalq səviyyədə artıracaq".

### Vaşinqton Azərbaycan və Gürcüstanla münasibətləri normallaşdırmaq üçün səylər göstərəcək

Politoloq bildirib ki, yeni beynəlxalq iqtisadi münasibətlər fonunda Cənubi Qafqaz ABŞ-ın xüsusi diqqət mərkəzində olacaq, ən önəmlisi isə Azərbaycan ilə Ermənistan arasında sülh müqaviləsinin imzalanacağı təqdirdə bu regionda ciddi siyasi və iqtisadi dəyişikliklərin baş verməsi Vaşinqton üçün daha maraqlıdır. "Tramp ABŞ-ın Cənubi Qafqazda mövqeyini möhkəmləndirməyə çalışacaq. ABŞ-ın Cənubi Qafqazda mövqeyi xeyli zəifləyib. Ona görə ki, əvvəlki administrasiya regionda çox ədalətsiz, irrasional və qeyri-peşəkar siyasət yürüdürdü - Ermənistanla münasibətləri normallaşdırdığı halda Azərbaycan və Gürcüstanla münasibətləri korlamışdı. Hazırkı administrasiya Azərbaycan və Gürcüstanla münasibətləri normallaşdırmaq üçün səylər göstərəcək, Bakı və Tbilisi ilə dialoqu bərpa edəcək. Bu baxımdan ABŞ Dövlət Departamentinin rəsmilərinin regiona səfərləri gözləniləndir".

*Yunis ABDULLAYEV*

# Vəfat edəndən sonra cibindən 9 manat pul, dörd avtoqələm çıxıb...

## Axır vaxtlar həmişə iclasda əlini ürəyinin üstünə qoyardı. Sanki ürəyini qoruyardı.

Cümə Qiraəti



### Xəli Rza Ulutürkün “Gündəliklər” kitabından

**10 mart, 1965**

Axşamüstü bizə gələn Qabili görəndə sevincimdən az qala uçacaqdım. Eyvanda qucaqlaşdıq. Fəqət qəmli-qəmli bildirdiyi xəbər məni ildırım kimi vurdu:

- Mehdi Hüseyn öldü.

İnanmaq çətindir. Mən inanmadım. Qabilin növbəti zarafatı hesab etmək istədim. Lakin Qabil çox qəmgin idi. Az sonra ölümün təfərrüatını mənə danışdı.



Qabil bu xəbəri bildirəndə mən bu gün saat 11 radələrində Mehdi Hüseynlə olan ani görüşümü xatırladım. Şəhriyar barədə gözəl mühazirə aparıb institutdan çıxmışdım. Dünən Mehdi Hüseynin “Yeraltı çaylar...” barədə yazdığım məqaləni “Azərbaycan” jurnalına təhvil verəcəkdim. Jurnalın çıxmasına dözməyib əsəri mətbəədə oxuduğumu bildirdim. Mehdi Hüseyn nə qədər sevindi. Hələ bir neçə ay bundan qabaq “Azərbaycan” jurnalının 1964-cü il 12-ci sayında çıxan romanın birinci hissəsi barədə yazdığım məqaləni sevincimdən dözə bilməyib Mehdi Hüseynə göstərmişdim. Məqaləni evinə aparmışdı. Arvadı Fatma, qızı Zivər oxumuşdu. Nə qədər sevinmişdilər. Bu gün müəllifə bildirdim ki, məqaləni tamamlamışam. Əsərin bir yerini oxuyanda ağladım. Kamran hövl içində yuxudan qalxıb: “Açarları ona kim vermişdi? Müdhət indicə burada idi” sözlərini deyərkən mən sarsılmışdım. Mehdi Hüseyn bundan, yəni əsərin belə təsir etməsindən çox xoşhal oldu.

-Amma, Mehdi müəllim, bir yerdə çox cəsarətli fiki söyləyibsiniz. Sonra özünüz də bu cəsarətdən ehtiyat edibsiniz.

-Harda?

-Orda ki, Müdhət aydın deyir: “Mən zəmanədən necə razı ola bilərəm ki, dünyada ən çox sevdiyim adamı o mənadən ayrı saldı?!.

Yox, Stalin zəmanəni yaratmamışdı. Zəmanə Stalini yaratmışdırəhmsiz dövran öz rəhmsiz hakimini.

Bunlar cəsarətli sözlərdir.

Bir neçə gün qabaq yenə institutdan çıxıb Yazıçılar İttifaqının qabağında Mehdi Hüseynlə qarşılaşdığım zaman bu sözləri Mehdi Hüseyn onunla rubəru dayanmış tənqidçi Ə.Hüseynova deyir və öz qəhrəmanının mövqeyində dayandığını bildirirdi.

Mehdi Hüseyn sözün əsl mənasında cəsarətli, həqiqətsevər və öz idealı uğrunda mübarizə aparan bir sənətkar idi. Onun dilindən eşitdiyim hər bir sözü bura köçürməyi lazım bilirəm. “M.C.Bağırov Stalinə bildirir ki, Ruhulla Axundov da düşmən çıxdı. Stalin cavab verir ki, axı siz deyirsiniz o, bilikli adamdır. Lenini tərcümə etməklə məşğuldur. Təkcə Lenini tərcüməsi onun günahlarını yuyur. Bağırov cavab verir ki, daha indi bizdə gözəl tərcüməçilər yetişib.



Heydər Hüseynov kimi gözəl filosoflarımız var. Ruhullaya ehtiyacımız yoxdur. Bundan sonra Ruhulla bada gedir”.

Mehdi Hüseyn bu məsələ barədə ürək yanğısı ilə danışırdı. Hiss olunurdu ki, o, artıq öz xalqının tarixi mövqeyini dərk etmiş sənətkardır, ayılmış sənətkardır, həqiqəti deyən və bu həqiqətin işığı ilə Azərbaycan xalqına xidmət etməyə çalışan əzəmətli sənətkardır.

Qabillə dərdləşirik, zəng vurub Salam Qədirzadəni haraylayır. Həyat qəribədir. Bir-iki saat bundan qabaq mənimlə deyə-gülə danışan bir sənətkarı Qabil indi “rəhmətlik Mehdi Hüseyn” adlandırır. Salam Qədirzadə nəql edir ki, axır vaxtlar həmişə iclasda əlini ürəyinin üstünə qoyardı. Sanki ürəyini qoruyardı.

Mehdi Hüseyn istedadı qiymətləndirən bir sənətkar idi. Ədəbi gəncliyi bir ata məhəbbətilə sevən sənətkar idi. Mənə çox sərt sözlər söyləmişdi. Bununla belə, heç vaxt ondan sınmamışdım, inciməmişdim.

İsrafil Nəzərliyə, Mustafa Əfəndiyevə zəng vurub mənim əsərimi-dissertasiyamı plana saldırmaq barədə nə qədər çalışdığını unuda bilmərəm:

- Bu, şairin şair barədə yazdığı əsərdir. Belə əsərlər faydalı olur.

- Mehdi müəllim, siz mənim nəzərimdə ilk romanını nəşr etdirmiş gənc yazıçıya bənzəyirsiniz.

Bu səhər bu cümləni eşidəndə şən, gümrah Mehdinin gülər üzündəki parlaq təbəssümü unuda bilmirəm. Mehdi Hüseyn şirin gülərdi. Onun gülüşü təmiz insanlara, böyük sənətkarlara məxsus pak gülüş idi. Mehdi Hüseyn bütün ömrü boyu mübarizə aparmışdı. Lakin o heç vaxt öz şəxsi mənafeyi yolunda, cılız mənafe yolunda deyil, həmişə öz böyük amalı, xalqın məsləyini qorumaq yolunda döyüşmüş və bütün çarpışmalardan qalib çıxmış yazıçıdır. Eşq olsun sənə, əziz Mehdi müəllim!

**12 mart, 1965**

Mehdi Hüseynin vaxtsız vəfatı bizi hələ də yandırıb-yaxır. Öləndən bir-iki saat qabaq Qılmanla söhbət edib ki, pulum yoxdur, mart nömrəsindəki qonorarımı ala bilərəmmi. Qılman deyib ki, mühasiblə danış.

“Onu da bir söz eyləyərlər”, - deyə Mehdi Hüseyn pulu qabaqcadan almaqdan boyun qaçırır. Vəfat edəndən sonra cibindən 9 manat pul, dörd avtoqələm çıxıb. Mehdi Hüseyn H. Abbaszadənin və Həsən Qasımovun əlləri altında soyuyur.



- Nə bilirsiniz eləyin, - deyib. - Mən özümü pis hiss edirəm.

Ürəyini tutub. Bir az sakitləşəndən sonra dübarə ürək tutulub, açılmayıb. Ölümündən ilk xəbər tutan Əli Vəliyev olub:

- Vay, kişi keçinib ki... Evimiz yıxıldı.

Bayram bir dəfə onu özü ilə balıq ovuna aparan Mehdi Hüseyndən xatirələr söyləyir:

- İri xəmiri ilişdirərdi tilova, gözlərdi...

“Ayə, Türkiyədə sən məndən çox məşhursan, hamı sənin Sevda Aydana yazdığın şeirdən danışır”, - deyə bir dəfə Tofiq Bayramı sevindirən Mehdi Hüseyn indi xatirələrdə yaşayır.

# Hamı inanır ki, Tağıyevin adına layiq müəssisə yenidən işləyəcək



Xeyli vaxt idi ki, ora getməyi planlaşdırırdım. Hər dəfə hansısa bir bəhanə ilə bu qərarımı gerçələşdirə bilmirdim. Evimiz kombinata yaxındır deyə, yolum bu hündür, qırmızı divarların qarşısından tez-tez düşür.

Söhbət illər öncə minlərlə işçisi olan, hazırda isə fəaliyyətini dayandırmış Qafqazın ilk parça toxuculuq fabriki olan Hacı Zeynalabdin Tağıyev adına tikiş kombinatından gedir. O kombinat ki, vaxtilə burada 6000-ə yaxın işçi çalışıb və 140-150 milyon metr parça istehsal edilib.

Nəhayət, bu naxışlı darvazlardan içəri addım ata bildim. Həyətdə xeyli qurumuş ağac var idi. Öyrəndik ki, bu ağacların çoxusu Kombinatla yaşıddır. Bu qocaman çinarlar müəssisənin tarixinə şahidlik edən ən zəngin sübutlardır. Uzaqdan binanın hansısa otaqlarından birində mişar, dəzgah səsləri eşidilirdi. Fabrikin həyətində arada tək-tük cavan oğlanlar görsənirdi, çox güman ki, onlar sexlərdə çalışanlar idi.

Qapıdan içəri keçdikdə bəstəboy bir kişi bizə yaxınlaşdı. Bizi qarşılayan müəssənin direktor müavini Qasım Qasımov idi. Qasım müəllimin sözlərinə görə, son illər bura çox gəlib-gedən olur, ancaq içəri keçməyə icazə verməyiblər. Söhbət əsnasında içəri bir nəfər daxil olur. Zahiri görünüşünə görə, Orta Asiyalılara bənzəyən bu hündürboy şəxsin müəssisənin direktoru Rafael Tağıyev olduğunu öyrənirik.



Direktorun qəbul otağına daxil oluruq. Rafael müəllim deyir ki, bu qocaman müəssisənin çox şərəfli və respublika iqtisadiyyatı üçün əhəmiyyətli tarixi vardır. Müəssisə yaranmamışdan əvvəl ölkəmizdə çox ciddi ipək problemi var idi, müsəlmanlar kəfən üçün bezi belə Rusiyadan alırdılar. O dövrdə bu vəziyyət Azərbaycanlı iş adamlarını, xüsusilə də Hacı Zeynalabdin Tağıyevi bərk narahat edirdi. Ona görə də Bakıda toxuculuq fabriki tikmək qərarına gəlir. Həmin dövrdə Azərbaycanda pambıq olmasına baxmayaraq, kətan məhsulları istehsal edən fabrik yox idi. Müəssisənin inşası üçün xarici memarlara müraciət olunur. Kombinatın binası memar polyak İ.Qoslavskinin layihəsi əsasında 1896-1899-cu illər ərzində tikilərək 1900-cü ildə istifadəyə verilib. Kombinatın damı elə hazırlanmışdı ki, hava açılanda fabrikin içi işıqlanır və əlavə işığa ehtiyac olmurdu. Yeri gəlmişkən, kombinat o dövrdə fəaliyyət kanalizasiya sistemi qurulan yeganə müəssisə olub.

Müəssisənin direktorunun sözlərinə görə, fabrikin ərazisində işçilər üçün hər cür şərait yaradıldı: Mənzillər, klinika, fəhlə uşaqları üçün məktəb, uşaq bağçası inşa edilmiş, böyüklər üçün axşam kursları təşkil olunmuşdu.

Uzun illər respublikanın yüngül sənayesinə töhfələr verən bu müəssisə sovet ittifaqı dağılandan sonra çətinliklərlə üzləşdi, ancaq yenə də fəaliyyətini qoruyub saxlaya bildi.






Müstəqilliyini yenicə bərpa etmiş ölkəmizin ağır siyasi-ictimai dövrlərində, Birinci Qarabağ müharibəsinindavam etdiyi iqtisadi sarsıntılı günlərdə belə müəssisə öz istehsal gücünü tam qoruyub saxlamışdı, 6 min nəfər işçi 3 növbəli rejimdə yorulmadan çalışaraq bazarın tələbatını ödəməyə çalışırdı. İşçilərin sosial vəziyyəti də pis deyildi, yüksək əməkhaqqı alınan müəssislərdən biri idi bura.

R.Tağıyev söhbət əsnasında kombinatın adını daşıdığı böyük xeyriyyəçi Tağıyev barədə maraqlı bir hadisəyə də diqqət çəkir: “Günlərin birində fəhlələrdən birinin cibindən bir qəpik düşür və pulu götürmədən gedir. H. Zeynalabdin Tağıyev onu çağırıb qəpiyi götürməməyinin səbəbini soruşur. İşçi cavabında deyir ki, sizin verdiyiniz yüksək maaşın müqabilində mənim o bir qəpiyə ehtiyacım yoxdur. Tağıyev qəpiyi götürüb otağına gəlir, köməkçisinə tapşırır ki, bütün işçilərin maaşından 1 qəpik kəsilsin. O, işçilərdən tutduğu 1 qəpiyin hesabına böyük bir məktəb tikdirir, sonra həmin işçini çağırıb deyir: “Bir qəpiyin qədrini bilməyən insan heç vaxt pulun qədrini bilməz”.

R. Tağıyev deyir ki, kombinat çətin günlərini yaşayanda ərazidə başqa müəssisələr tikmək istədilər, ancaq onlar da yarımçıq qaldı. Bu ərrazidə müxtəlif obyekt və müəssisə tikmək istəsələr də, mümkün olmadı.

H.Z.Tağıyev adına kombinat hazırda dövlət mülkiyyətində olan müəssisə kimi qalmaqdadır. İstehsal fəaliyyətini dayandırsa da, kombinatda hazırda kiçik bir sex fəaliyyət göstərir ki, bu da ehtiyacı olanlara müəyyən kömək edir.

Hər kəs vaxtilə minlərlə işçisi olan bu nəhəng fabrikin qapılarının öz işçilərinin üzünə yenidən açılacağı günü gözləyir. Hamı inanır ki, burada Hacı Zeynalabdin Tağıyevin adına layiq yeni müəssisə yaradılacaq.

*Havar Şəfiyeva*



# YENİ AZƏRBAYCAN

http://www.yeniazerbaycan.com

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir



**“Yeni Azərbaycan” qəzetinə abunə olmaq istəyənlər aşağıdakı yayım şirkətləri ilə əlaqə saxlaya bilərlər:**

“Azərpoçt” MMC PDM- 0125984955, 0552004544
“Azərmətbuatyayımı” ASC - 0124411991, 0124404694
“Səma” MMC - 0125940252, 0503336969
“Pressİnform” MMC - 0703400100, 0504560835
“Qaya” MMC - 0125667780, 0502352343
“Qasid” MMC - 0124931406, 0124938343
F.Ş.Ruhid Hüseynov - 0124349301, 0505357898
“Ziya LTD” MMC - 0124977696, 0503067744

6 aylıq abunə - 79,20 AZN
12 aylıq abunə - 158,40 AZN




# Torpağımızı müqəddəsləşdirən Qəhrəman!

## Düşməndən qisas almağa and içmişdi... Mübariz İbrahimovun doğum günüdür

Vətən hər birimiz üçün sanki bir qaladır. Bu qalanı ucalıq mərtəbəsində tutan, ruhunun ucalığı bilən, sal qaya kimi düşmənin qarşısını kəsən isə igid oğullarımızdır. Biri-birinə arxa-dayaq olan bu qayaların ürəkləri Vətən sevgisiylə, Vətən eşqiylə döyünür. Onlar Vətənimizin işıqlı sabahları, aydın səmaları üçün döyüşür, Vətən üçün canını əsirgəmir, şəhadətləriylə ölümü ucaldıb ölümsüzlüyə, əbədiyyətə qovuşurlar.

Xalqımızın keçmişi və bu günündə qəhrəmanlıq nümunələri çox olub. Araşdırdıqca, oxuduqca igid oğullarımızın Vətən sevgisinə heyran qalmaya bilmirsən. Çünki qəhrəman oğullar torpaqlarımızı düşmənlərdən qorumaq üçün can atır, heç nədən çəkinmədən, igidliklə bayrağımızı köksünə sıxır, qanı torpağa axsa da, onu yerə düşməyə qoymur. Bu igidlərdən biri də Mübariz İbrahimovdur.

Bu gün Milli Qəhrəmanımızın anadan olmasından 37 il ötür. 1988-ci il fevralın 7-də doğulan qəhrəmanımız Qarabağ müharibəsi ilə həmyaşıd idi. Qəhrəmanlıq ənənələri ruhunda böyüyən Mübariz orta təhsilini şəhid Malik Piriyev adına Əliabad kənd orta məktəbində alıb. 2006-cı ilin yazında həqiqi hərbi xidmətə çağrılan gənc Mübariz Daxili Qoşunların “N” saylı hissəsinin xüsusi təyinatlı bölüyündə atıcı əsgər olub, həqiqi hərbi xidmətini çavuş rütbəsində başa vurub. 2009-cu ildə yenidən, bu dəfə gizir kimi orduda xidmətə başlayıb. Çox keçmədən öz arzusu ilə cəbhə bölgəsindəki hərbi hissələrdən birinə xidmətə göndərilib.

### Sonuncu məktub...

2010-cu il, iyunun 18-dən 19-a keçən gecə Tərtər rayonunun Çaylı kəndi yaxınlığında 22 yaşlı gizir Mübariz İbrahimov döyüş növbəsində olduğu vaxt düşmən tərəfindən atəşkəs rejiminin pozulması nəticəsində başlanan atışmada şəxsi rəşadət nümayiş etdirir. Təkbaşına təmas xəttinin bir kilometrlik minalanmış sahəsini keçir. Qəfil həmləsi ilə Ermənistan ordusunun çox sayda əsgər və zabitini məhv edir. Sonra isə düşmənin öz silahlarından onun özünə qarşı istifadə edərək 5 saat təkbətək döyüşür. Düşməni çox ağır itkilərə məruz qoyur. Azərbaycan döyüşçüsü səhərə yaxın qeyri-bərabər döyüşdə qəhrəmancasına şəhid olur.



Bu sətirlər Mübarizin evlərinə göndərdiyi son məktubundandır: “Canım atam və anam. Məndən sarı darıxmayın. İnşallah, cənnətdə görüşəcəyik. Mənim üçün bol-bol dua edin. Vətənin dar günündə artıq ürəyim dözmür. Allaha xatir bunu etməliyəm. Ən azından ürəyim sərinlik tapar. Şəhid olanadək düşmənin üzərinə gedəcəyəm. Şəhid olsam - ağlamayın. Əksinə, sevinin ki, o mərtəbəyə yüksəldim... Vətən sağ olsun. Oğlunuz Mübariz. Haqqınızı halal edin”.

Bu gün Mübariz İbrahimovun ruhu şaddır. Çünki onun da qəhrəmanlığından ilham alan igid oğullarımız 2020-ci ilin 44 günlük Vətən müharibəsində torpaqlarımızı düşməndən azad edərək şanlı Qələbə qazandılar.

### Mübarizin şücaətinə verilmiş layiqli qiymət

Prezident İlham Əliyevin 22 iyul 2010-cu il tarixli Sərəncamı ilə gizir Mübariz İbrahimova ölümündən sonra “Azərbaycanın Milli Qəhrəmanı” adı verilib, “Qızıl Ulduz” medalı, “Vətən övladı” qızıl ordeni ilə təltif edilib. O, həmçinin Azərbaycanda ilin adamı mükafatına layiq görülüb. İgid Mübarizin düşmən tərəfdə qalmış nəşi bir müddət sonra Ali Baş Komandanın qətiyyətli səyləri sayəsində alınaraq doğma Vətənə gətirilib.

Prezident İlham Əliyev qəhrəmanla vida mərasimindəki nitqində onun əbədiyyət yolçuluğunu yüksək qiymətləndirib: “Mübariz yaxşı bilirdi ki, o döyüşdən sağ-salamat çıxa bilməyəcək. Ancaq Vətən, torpaq sevgisi, onda olan vətənpərvərlik ruhu onu şəhidlik zirvəsinə ucaltdı. Mübariz bütün gənclər üçün örnəkdir, nümunədir... Bizim ordumuzda minlərlə, on minlərlə Mübariz kimi, Fərid kimi qəhrəmanlar var... Azərbaycan Ordusu Cənubi Qafqazda ən qüdrətli, ən peşəkar, ən mübariz ordudur və şəhidlərimizin qəhrəmanlığı bunu bir daha sübut edir”.

### Ziyarətgaha çevrilmiş ev...

Milli Qəhrəmanın xatirəsinin əbədiləşdirilməsi məqsədilə doğulub boya-başa çatdığı Biləsuvar rayonunda lisey kompleksinə və küçələrdən birinə onun adı verilib.



15 ilə yaxındır ki, Əliabad kəndini Mübarizin kəndi adlandırırlar. Milli Qəhrəmanın ata evinin həyətində onun ev-muzeyi tikilib. Bura gələn hər kəs ondan xatirə qalmış əşyalarla, fotoguşəylə tanış olur, qəhrəmanın əziz xatirəsinə sonsuz ehtiramını bildirir.

M.İbrahimov həm ölkəmizdə, həm də ölkəmizin hüdudlarından kənarda qəhrəmanlıq, şücaət rəmzinə çevrildi. Qəhrəmanımız qısa ömür yaşasa da canını Vətən yolunda fəda etməsi ilə gənclərə örnək olacaq şanlı bir yol və ad-san qoyub getdi. Bizlər üçün Mübariz ölməyib. Hər bir şəhidimiz kimi Mübariz İbrahimov da əbədiyaşardır...

*Yeganə BAYRAMOVA*

# Sahibkarlığın inkişafı üçün!

## Lazım olan bütün tədbirlər görülür...

Sahibkarlığın inkişafı Azərbaycan dövlətinin iqtisadi siyasətinin başlıca istiqamətlərindən biri olmaqla, ölkədə iqtisadi və sosial problemlərin həllinin mühüm amili hesab olunur. Sahibkarlığın inkişafı üçün vacib olan qanunvericilik bazası yaradılıb. Sahibkarların hüquq və qanuni mənafelərinin müdafiəsini, sahibkarlıq fəaliyyətinin dövlət tənzimlənməsinin təkmilləşdirilməsini, sahibkarlıq mühitinin sağlamlaşdırılmasını təmin edən müvafiq normativ hüquqi aktlar qəbul edilib. Ölkəmizdə son onilliklərdə aparılan iqtisadi islahatlar qeyri-neft sektorunda sahibkarlığın formalaşmasına, onun iqtisadiyyatdakı rolunun daha da artmasına, sosial-iqtisadi problemlərin həllində fəal mövqe nümayiş etdirməsinə geniş imkanlar açıb.

**Aqroparklara 142 milyon manat kredit ayrılıb**

İndiyə qədər İqtisadiyyat Nazirliyi yanında Sahibkarlığın İnkişafı Fondu 16 aqroparkın yaradılmasına 142,4 milyon manat güzəştli kredit ayırıb. Bunu İqtisadiyyat Nazirliyi yanında İqtisadi Zonaların İnkişafı Agentliyinin İdarə Heyətinin sədri Seymur Adıgözəlov keçirdiyi mətbuat konfrasında bildirib.

Onun sözlərinə görə, investisiya təşviqi sənədi almış 17 aqropark isə texnika, texnoloji avadanlıqlar və qurğuların idxalına görə 16,5 milyon manat dəyərində güzəşt əldə edib: “Qeydiyyata alınan aqroparklarda 3720 nəfər daimi işlə təmin edilib, 4878 nəfər isə mövsümi işlərə cəlb olunub. Növbəti mərhələdə əlavə olaraq 1600-dən çox daimi iş yerinin yaradılması nəzərdə tutulur. 2024-cü ildə əkin dövriyyəsinə cəlb olunmuş 42,5 min ha torpaq sahəsinin 35,7 min ha suvarılan ərazilərdir ki, bunun da 26 min hektarında (73%-i) mütərəqqi suvarma sistemləri qurulub”.




O, vurğulayıb ki, 2024-cü ildə aqroparklarda 34,1 min ton buğda, 25,5 min ton arpa, 91,8 min ton dən və silos qarğıdalı, 49,7 min ton şəkər çuğunduru, 22,4 min ton pambıq, 17,3 min ton kartof, 11,6 min ton yonca, 1,1 min ton soya, 3,5 min ton tərəvəz məhsulları, 14 min ton qüvvəli yem istehsal olunub, 18,1 min ton qarışıq meyvə yığılıb və 606 min ədəd ting əkilib: “Aqroparklarda istehsal olunmuş kənd təsərrüfatı məhsullarının ümumi dəyəri 150 milyon manat təşkil edib. Heyvandarlıq üzrə ixtisaslaşmış 6 aqroparkda 32,4 min ton süd və 1,3 min ton ət istehsal olunub”.

S.Adıgözəlov vurğulayıb ki, ümumi ərazisi 2807 hektar olan Yevlax Pilot Aqroparkı ölkədə kiçik və orta fermerlərin cəlb olunması ilə yaradılan ilk aqroparkdır: “Aqroparkda intensiv meyvə bağlarının salınması, heyvandarlıq və quşçuluq təsərrüfatlarının, həmçinin emal sahələrinin yaradılması nəzərdə tutulub. Aqroparkın 2 807 hektar ərazisinin 1 185 hektarı parsellərə (58 parsel) bölünmüş sahələr, 1 298 hektarı heyvanların yem təminatı və pambıqçılıq sahələri, 141 hektarı sənaye zonası, qalan 183 hektarı isə mühafizə zolaqları və təsərrüfatdaxili yollardır.

Aqroparkda dövlət investisiyası hesabına tutumu 110 min kubmetr olan membran örtüklü su anbarı və 8 aqreqatlı nasos stansiyası inşa olunmuş, parsellərə bölünmüş 800 hektar (40 parsel) ərazinin təzyiqli su və elektrik təchizatı tam təmin olunmuş, təsərrüfatdaxili yollar çəkilmiş və uzunluğu 12,5 kilometr olan sel ötürücü kanalın 10,4 kilometrlik hissəsi tikilib. Qalan 385 ha (18 parsel) ərazinin su və elektrik təchizatı, daxili yollar və su ötürücü kanalların tikintisi üzrə işlərin 2025-ci ildə yekunlaşdırılması planlaşdırılır. Aqropark üzrə 2280 ha sahədə 34 sahibkarlıq subyekti rezident kimi qeydiyyata alınıb. Rezidentlərin ümumilikdə 55,2 milyon manat özəl investisiya yatırması ilə 331 nəfər üçün daimi iş yerinin yaradılması nəzərdə tutulur. Bu günə qədər rezidentlər 44 milyon manat investisiya qoymaqla 121 daimi, 457 mövsümi iş yeri açıb. 21 rezident 1 199 ha ərazidə əkin işləri aparıb, 412,5 ha sahədə intensiv və superintensiv meyvə bağları salıb. Aqroparkda 1,1 min ton buğda, 0,6 min ton arpa, 0,4 min ton pambıq və 660 min ədəd ting istehsal olunub”.

**Sənaye zonalarına 1 milyard manat investisiya qoyulacaq**

S.Adıgözəlov bildirib ki, Azərbaycanda sənaye zonalarına növbəti mərhələdə mövcud layihələr üzrə daha 1 milyard manatdan çox investisiyanın yatırılması nəzərdə tutulur.

O, vurğulayıb ki, əlavə investisiyalar hesabına 8 000-dən artıq daimi iş yerinin yaradılması planlaşdırılır: “2024-cü ildə sənaye zonalarında yeni fəaliyyətə başlayan 10 müəssisə ümumilikdə 48,6 milyon manat investisiya yatırıb, 389 daimi iş yeri yaradıb. Bu müəssisələr müxtəlif təyinatlı tikinti materiallarının, ayaqqabıların, dəmiryolu avadanlıqlarının, elektrik və s. məhsulların istehsalı ilə məşğul olurlar. Yeni fəaliyyətə başlayan müəssisələrin çoxunun Ağdam Sənaye Parkında olması xüsusilə qürurverici haldır.

Sənaye zonalarında investisiya portfeli 7,9 milyard manat olan 152 sahibkarlıq subyektinə rezidentlik, 10 sahibkara isə qeyri-rezidentlik statusu verilib. Sahibkarlar sənaye zonalarına 6,9 milyard manat investisiya yatırıb, 84 müəssisə fəaliyyətə başlayıb, 10 700-dən artıq daimi iş yeri yaradılıb”.

*Yeganə BAYRAMOVA*


Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Məqalə “Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi”nin maliyyə dəstəyi ilə “Azad sahibkarlığın və liberal iqtisadiyyatın təşviqi” istiqaməti üzrə hazırlanmışdır**


*İdman*

## Avropa çempionatında Azərbaycanın rəqibləri məlum olub

21 yaşadək futbolçulardan ibarət milli komandalar arasında 2025-2027-ci il Avropa çempionatının seçmə mərhələsinin püşkü atılıb. İsveçrənin Nyon şəhərində baş tutan püşkatma mərasimində Azərbaycan millisinin rəqibləri müəyyənləşib.“B” qrupunda yer alan U-21 Portuqaliya, Çexiya, Bolqarıstan, Şotlandiya və Cəbəllütariq yığmaları ilə mübarizə aparacaq. 2025-ci ilin martında başlayacaq seçmə mərhələ 2026-cı ilin oktyabr ayına qədər davam edəcək.




## “Araz-Naxçıvan” heyəti gücləndirib

“Araz-Naxçıvan” qış transfer pəncərəsi dövründə ilk transferini rəsmiləşdirib. Mərakeş əsilli belçikalı yarımmüdafiəçi Əyyub Allaşla “6 ay +1 illik” müqavilə imzalanıb.27 yaşlı futbolçunun son klubu Moldova “Şerif”i olub. O, karyerası ərzində “Lyers”, “Svope Park Reyncers”, “Lyers Kempenzone”, həmçinin 2023-cü ilin qışından 2024-cü ilin yayına qədər “Qəbələ”nin formasını geyinib. Hücumameyilli yarımmüdafiəçi Mərakeşin U-20 milli komandasında da çıxış edib.




## Gənc badmintonçularımız “Top-100”-lükdə

İlk dəfə Azərbaycanın iki gənc badmintonçusu - Ülvi Hüseynov və Həcər Nuriyeva Dünya Badminton Federasiyasının (BWF) açıqladığı reytinq siyahısında “Top-100”ə düşüblər. Beynəlxalq turnirlərdə uğurlu çıxışla yadda qalan Ü.Hüseynov reytinqdə 63-cü yerə yüksəlib. Badmintonçumuz son olaraq İran və Türkiyədə keçirilmiş beynəlxalq turnirlərdə mükafatçılar sırasında yer almaqla reytinq xalını 4050-yə çatdırıb. O, 2023-cü ildən Malayziya Badminton Akademiyasında təhsil almaqla yanaşı, mütəmadi olaraq bu ölkənin müxtəlif yaş qrupları üzrə milli komandalarının üzvləri ilə birgə təlim-məşq toplanışlarında iştirak edir.



H.Nuriyeva isə 2023 və 2024-cü illər ərzində Tacikistan, İspaniya, Türkiyə, Zambiya və Botsvanada keçirilmiş beynəlxalq turnirlərdə mükafatçılar sırasında yer almaqla reytinq sıralamasında 21 pillə irəliləyərək 47-ci yerdə qərarlaşıb. Sonuncu dəfə bu il İranda təşkil olunmuş beynəlxalq turnirdə Leyla Camalzadə ilə birgə çıxış etdiyi qoşa kateqoriyada qızıl medal qazanaraq reytinq xalını 5800-ə yüksəldib.

## Ulduz cüdoçular Bakıya gəlir

Dünyanın daha bir neçə tanınmış cüdoçusu Bakıdakı “Böyük Dəbilqə”də mübarizə aparacaq. Apasport.az xəbər verir ki, bu barədə Azərbaycan Cüdo Federasiyasının mətbuat xidməti məlumat yayıb. Yarışda qadın idmançılardan isveçli olimpiya, dünya mükafatçısı Tara Babulfat (48 kq), kosovolu olimpiya çempionu, dünya mükafatçısı Distria Krasniqi (52 kq), niderlandlı dünya çempionu Coan Van Lisxaut (63 kq) tatami üzərinə çıxacaqlar.



Kişilərdən tacikistanlı dünya, olimpiya mükafatçısı Somon Maxmadbekov (81 kq) ilə rusiyalı dünya, olimpiya mükafatçısı Tamerlan Başayev (+100 kq) də medal qazanmağa çalışacaqlar.

Qeyd edək ki, “Böyük Dəbilqə” fevralın 14-16-sı aralığında keçiriləcək. Daha əvvəl Yaponiyanın olimpiya və dünya çempionu olmuş cüdoçularının turnirdə iştirak edəcəyi açıqlanıb.

## Türkiyə telekanalında Qərbi Azərbaycan həqiqətlərinə dair sənədli film nümayiş etdiriləcək

Mədəniyyət Nazirliyinin dəstəyi ilə xarici ölkələrdəki Azərbaycan Mədəniyyət mərkəzləri ölkə həqiqətlərinin yayılması, milli mədəniyyətimiz, tariximiz, ədəbiyyatımızın təbliği məqsədilə bir sıra layihələr həyata keçirir. AZƏRTAC xəbər verir ki, Türkiyədə media sahəsində tanınan, vətənpərvərlik, tarix, mədəniyyət mövzularına daha çox önəm verən və bu istiqamətdə layihələr həyata keçirən “Ulusal” telekanalı ilə ölkəmizin Ankaradakı səfirliyinin nəzdindəki Azərbaycan Mədəniyyət Mərkəzi arasında əməkdaşlıq çərçivəsində fevralın 7-də Qərbi Azərbaycan həqiqətlərinə dair “Nəsil ağacı” sənədli filmi nümayiş etdiriləcək.

Film Qərbi Azərbaycandan - doğma yurd yerlərindən deportasiya olunmuş soydaşlarımızdan, tanınmış ziyalılardan bəhs edir. Ekran əsərində Azərbaycan xalqının min illər boyu böyük mədəniyyət yaratdığı Qərbi Azərbaycanın tarixi, etnoqrafiyası, məşhur şəxsiyyətləri, zəngin mətbəxi, deportasiyalardan əziyyət çəkmiş insanların taleyi və bir neçə ailənin həyat hekayəsi əks olunub. Filmdə vurğulanır ki, Qərbi Azərbaycanda (indiki Ermənistan ərazisində) azərbaycanlı əhali XX əsrdə dörd dəfə kütləvi deportasiyaya məruz qalıb və bu deportasiyalar zamanı 1 milyondan çox azərbaycanlı öz vətənlərini tərk edərək qaçqın həyatı yaşamağa məcbur olub. Buna baxmayaraq, Qərbi azərbaycanlılar öz adət-ənənələrini qoruyub gələcək nəsillərə çatdırırlar.

Filmin əsas ideyası odur ki, “Nəsil ağac”larının budaqları Azərbaycanda olsa da, onun kökləri tarixi Qərbi Azərbaycan torpaqlarındadır. Onlar böyük faciələr, çətin günlər yaşasalar da, həmişə öz doğma torpaqlarına qayıdacaqları günü ümidlə gözləyirlər.

Ssenari müəllifi Ayaz Mirzəyev olan filmin prodüseri Elnur Niftəliyevdir. Film Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin maliyyə dəstəyi ilə hazırlanıb, Ankaradakı Azərbaycan Mədəniyyət Mərkəzi tərəfindən türk dilinə çevrilib.


Təsisçi: Yeni Azərbaycan Partiyası
Baş redaktor: Alqış HƏSƏNOĞLU

www.yeniazerbaycan.com
mail@yeniazerbaycan.com
Ünvan: Bakı - AZ-1000, Üzeyir Hacıbəyli - 66
Telefonlar: 598-37-76, 498-82-21, 498-81-24, 498-19-84

İndeks: 67100
Lisenziya: N-B-317
Tiraj: 4427
Sifariş: 265
“Kapital Bank” ASC-nin Nərimanov rayon filialı
h/h - 33080019443900419109
kod - 200093
VÖEN - 1500486601

Qəzet “Yeni Azərbaycan”ın bilgisayar mərkəzində yığılıb, səhifələnib və “Azərbaycan” nəşriyyatında ofset üsulu ilə çap edilib.

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur.
Məsul növbətçi: Yeganə Bayramova